

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 avqust 2026-cı il, cümə
№ 144 (7211)
Qiyməti 60 qəpik


## Naxçıvanın yeni dirçəliş dövrü



Bax səh. 3

## Muxtar Respublikanın sosial-iqtisadi inkişafı güclü maliyyə təminatı ilə dəstəklənir



Bax səh. 2

## Bakı ilə Berlinin regional sabitlik, təhlükəsizlik və inkişafla bağlı baxışları üst-üstə düşür

Bax səh. 2

## Dünyanın 50 ən yaxşı turizm məkanlarından biri - möcüzəli və qədim diyar...

Möcüzəli diyar adlandırılan Naxçıvan yalnız qədim tarixi ilə şöhrət tapmayıb. Bölgə həmçinin böyük turizm imkanlarına malikdir ki, bunu da şərtləndirən çoxsaylı amillər sadalamaq mümkündür. Əlamətdar haldır ki, Naxçıvanın turizm potensialı bütün dünyada tanınır. Londonda nəşr olunan "Wanderlust" jurnalında Naxçıvan Muxtar Respublikası dünyanın ən yaxşı 50 turizm mərkəzindən biri kimi qeyd olunub.

Son illərdə muxtar respublikada geniş imkanlar nəzərə alınmaqla turizm sektorunun inkişafına böyük diqqət göstərilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilən 11 prioritetdən biri məhz turizmin inkişafı ilə bağlıdır. Məqsəd regionun turizm cəlbediciliyini artırmaqla həm dünyada ölkəmizin, mədəniyyətimizin daha geniş miqyasda təbliğinə nail olmaq, həm də muxtar respublikanın gəlir imkanlarını artırmaq, bölgədə özəl sektorun inkişafını dəstəkləmək və əhalinin məşğulluğunu artırmaqdır. Prezident İlham Əliyev bugünlərdə Naxçıvana səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibəsində Naxçıvanın geniş turizm imkanlarına malik olmasına diqqət çəkərək vurğulayıb: "Digər vacib sahə, - yəni o sahə də bu gün səfərimin proqramında öz əksini tapmışdır, - Naxçıvanın tarixi-mədəni abidələrinin qorunmasıdır. Bildiyiniz kimi, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir. Naxçıvan qədim Atabəylər dövlətinin paytaxtı olub və o dövrə, ondan sonrakı dövrə aid olan bir çox...

Bax səh. 4

## Kiçik addımlar, böyük nəticələr



Bax səh. 2

## BTQ Qlobal Cənub Gənclər Platforması ilə əməkdaşlığı müzakirə edib

Bax səh. 5

## Təbii fəlakətlər və yaxud bəşəriyyətin kabusu

Bax səh. 5

## Avropanın dəyişən rolu: iqtisadi nəhəngdən siyasi gücə çevrilmə axtarışı

Bax səh. 7

## Prezident İlham Əliyevin Naxçıvan səfəri Türkiyə və Gürcüstan mediasının diqqət mərkəzində...

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində yer alan vacib məqamlar Türkiyə mediasında geniş əks-səda doğurub.

Qardaş ölkənin aparıcı xəbər agentlikləri, televiziya kanalları, xəbər portalları və qəzetləri Azərbaycan liderinin açıqlamalarını çoxmilyonlu auditoriyası ilə bölüşüb, həmçinin Prezident İlham Əliyevin müsahibəsindən sitatlar dərc edib.

"Türkiye" qəzeti "Zəngəzur dəhlizi genişlənir! Əliyev məsələni ətraflı izah etdi" sərlövhəli məqaləsində Azərbaycanın əsas hissəsini onun ayrılmaz parçası olan Naxçıvanla birləşdirən marşrutun Türkiyə və bütün Türk dünyası üçün əhəmiyyətini vurğulayıb.

Qəzet oxucularını Azərbaycan Prezidentinin bəyanatları ilə tanış edərək vurğulayıb ki, TRIPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) sadəcə dəmir yolu və avtomobil yolu deyil. Qəzet Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin açılmasına nail olunması ilə bağlı sözlərini sitat gətirərək qeyd edib: "Bu marşrut gələcəkdə fiber-optik kabel, elektrik xətləri və zərurət yarandıqda, neft və qaz boru kəmərləri üçün də istifadə edilə bilər".

"Hürriyet", "Milliyet", "Star" və digər qəzetlər də öz oxucularına Prezident İlham Əliyevin bəyanatlarını təqdim edib.

"Anadolu" xəbər agentliyi "Azərbaycan Prezidenti Zəngəzur dəhlizini qiymətləndirir" sərlövhəli məqaləsində Zəngəzur dəhlizi məsələsinin həllini tapdığı 2025-ci il avqustun 8-də...

Bax səh. 3

## Avqustun 17-dən sonra...



Bax səh. 7



## Bu il qeyri-leqal miqrantlar arasında ölüm halları artıb

Bax səh. 7

# Bakı ilə Berlinin regional sabitlik, təhlükəsizlik və inkişafla bağlı baxışları üst-üstə düşür

## Prezident İlham Əliyev Almaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də Almaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dirk Lölkeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Ötən ay Almaniyaya rəsmi səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı səfər zamanı Prezident Frank-Valter Ştaynmayer və Kansler Fridrix Merts ilə ikitərəfli əlaqələr və beynəlxalq məsələlər üzrə yaxşı müzakirələrin aparıldığını vurğuladı, ölkələrimizin regional sabitlik, təhlükəsizlik və inkişafla bağlı baxışlarının üst-üstə düşdüyünü qeyd etdi. Müzakirələr zamanı potensial əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirildiyini, bunların qarşılıqlı anlaşmaya və tərəfdaşlığımızın inkişafına gətirib çıxardığını deyən dövlətimizin başçısı Berlində imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin əhəmiyyətini vurğuladı, bunun münasibətlərimizi keyfiyyətcə üstün səviyyəyə qaldırdığını bildirdi.



Prezident İlham Əliyev qeyd etdi ki, bu gün biz artıq bir çox sahələrdə strateji qarşılıqlı əlaqələr haqqında danışırıq və ticarət, investisiyalar, biznes sahələrində mövcud olan imkanlar ikitərəfli əlaqələrimizi gücləndirir. Dövlətimizin başçısı səfirin Azərbaycanda fəaliyyətə onun Almaniyaya rəsmi səfərindən sonra başladığını vurğulayaraq, bunun ikitərəfli əlaqələrin gələcək inkişafı baxımından çox önəmli olduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə minnətdarlığını bildirən Dirk Lölke ötən il avqustun 8-də Azərbaycanla Ermənistan arasında Vaşinqtonda keçirilmiş Zirvə Görüşünün birinci ildönümü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı öz növbəsində regionda sülh gündəliyinin məhz Azərbaycanın təşəbbüsü ilə başladığını, sülh gündəliyini irəli aparılması üçün ölkəmizin səylərini bundan sonra da davam etdirəcəyini və bölgədə sülhün artıq dönməz olduğunu bir daha vurğuladı.

Səfir Almaniya hökumətinin Prezident İlham Əliyevin səfərinin nəticələrindən çox məmnun olduğunu qeyd etdi. O, müzakirə olunmuş işlərin tezliklə icra ediləcəyinə ümidvarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər və son dövrlərdə bu əlaqələrin inkişafında müşahidə olunan müsbət dinamika vurğulandı.

Həmçinin Şərq-Qərb nəqliyyat dəhlizi və Almaniya şirkətlərinin gələcəkdə bu marşrutun imkanlarından istifadə etmələri, ənənəvi və bərpaolunan enerji, eləcə də təhsil sahələrində əməkdaşlıq imkanlarına toxunuldu.

# Muxtar Respublikanın sosial-iqtisadi inkişafı güclü maliyyə təminatı ilə dəstəklənir

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın sosial-iqtisadi inkişafı istiqamətində daha bir önəmli addım atılıb. Söhbət Prezident İlham Əliyevin bu günlərdə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncam imzalamasından gedir.

Sözügedən sənəd Naxçıvan Muxtar Respublikasında 2026-2027-ci illərdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsini, yol, nəqliyyat və təhsil infrastrukturunun yenilənməsini, habelə abadlıq-quruculuq işlərinin davam etdirilməsini təmin etmək məqsədilə imzalanıb. Sərəncamla Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə nəzərdə tutulan çoxsaylı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən ümumilikdə 258 milyon manat ayrılması nəzərdə tutulub.

## Dövlət proqramlarının icrasının gözəl nəticələri

Qədim tarixi, zəngin mədəniyyəti, dövlətçilik ənənələri və yüksək potensialı olan Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatında xüsusi yer tutur, ölkəmizin inkişafında mühüm rol oynayır. Hazırda Naxçıvan inkişafının mühüm mərhələsindən keçir. Muxtar respublika ayrı-ayrı dövlət proqramlarını və infrastruktur layihələrini uğurla həyata keçirməklə ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir.

Bu kimi reallıqlar və bölgənin həssas coğrafiyada yerləşməsi nəzərə alınmaqla ölkəmizdə muxtar respublikanın davamlı inkişafını hədəfləyən məqsədyönlü siyasət həyata keçirilir. Qəbul edilmiş qərarların ardıcıl və sistemli icrası bu inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Xatırladaq ki, indiyədək Azərbaycan Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikası ilə bağlı 2 fərman və 5 sərəncam verilib, Nazirlər Kabineti tərəfindən isə 10 sərəncam və 15 qərar imzalanıb. O cümlədən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında", "Naxçıvan Sənaye Parkının yaradılması haqqında", "Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı və sərəncamları qəbul edilib. Bununla yanaşı, Azərbaycan Prezidentinin 2026-cı il 25 may tarixli 1044 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində Naxçıvan Muxtar Respublikasında aqrar sektorun modernləşdirilməsi, ekstensiv istehsaldan intensiv modelə keçid və ərzaq təhlükəsizliyinin təmin olunması, habelə aqrar məhsul istehsalı kooperativləri və onların ittifaqlarının dövlət dəstəyi ilə pilot olaraq yaradılması və fəaliyyətinin dəstəklənməsi istiqamətində mühüm strateji hədəflər müəyyənləşdirilib.



Dövlət proqramlarının və infrastruktur layihələrinin uğurlu icrası nəticəsində Naxçıvan Muxtar Respublikası dinamik inkişafını davam etdirir. Görülən işlərlə bağlı statistika kifayət qədər zəngindir. Əlamətdar haldır ki, iqtisadi önəm daşıyan layihələrlə yanaşı, sosial sferanı əhatə edən tədbirlərin həyata keçirilməsi də diqqət mərkəzində saxlanılır ki, bu da "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilən insan kapitalının inkişafı prioritetinə tam uyğundur. Bu çərçivədə Naxçıvan Regional DOST Mərkəzi inşa edilib. Hazırda Naxçıvan şəhərində 518 mənzilli sosial evlərin və yeni otel kompleksinin tikintisinə başlanılması üçün müvafiq tədbirlər görülür.



Bölgədə təhsil infrastrukturunun yenilənməsi çərçivəsində Ordubad rayonunun Xanağa və Azadkənd, Şərur rayonunun Həmzəlli, Vərməziyar və Təzəkənd, Babək rayonunun Vayxır və Hacıvar kənd tam orta məktəbləri, Babək və Şahbuz şəhərlərində məktəbdənkənar təhsil müəssisələri və STEAM Təlim-Tədris Mərkəzi tikilərək istifadəyə verilib. Babək rayonunun Nehrəm qəsəbəsində 3 nömrəli məktəbin tikintisi isə davam etdirilir.

Naxçıvanda həyata keçirilən sosial siyasətin ən mühüm istiqamətlərindən biri şəhid ailələrinin və Azərbaycanın ərazi bütövlüyünün müdafiəsində sağlamlığını itirmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsidir. 2023-cü ildən bugünədək muxtar respublikada şəhid ailəsi üzvü olan və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər 26 mənzillə, 24 avtomobillə, 102 nəfər isə sanatoriya-kurort yollayışı ilə təmin edilib.

Həmçinin "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının təminatına dəstək Fondu"nun ("Dəstək" Fondu) vəsaiti hesabına həmin kateqoriyadan olan şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə ümumilikdə 1 844 382 manat məbləğində maddi yardım göstərilib.

Eyni zamanda, 29-u Naxçıvan, 23-ü Şərur, 3-ü Babək, 6-sı Ordubad, 3-ü Culfa, 3-ü Şahbuz şəhərlərində və 1-i Kəngərli rayonunda olmaqla, ümumilikdə 68 mənzilin 2026-cı ilin sonunadək şəhid ailələrinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə verilməsi nəzərdə tutulur.

## Naxçıvana dövlət qayğısının növbəti təzahürü

Prezident İlham Əliyevin 12 avqust 2026-cı il tarixində imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncam bölgənin inkişafına göstərilən dövlət qayğısının növbəti təzahürüdür. Sərəncamla Naxçıvana ayrılacaq vəsaitin aşağıdakı istiqamətlər üzrə xərclənməsi nəzərdə tutulur:

- Ordubad rayonunun Tivi kəndində Gilançay üzərində ümumi gücü 15,6 MVt olan Tivi Su Elektrik Stansiyasında tikinti-quraşdırma işlərinin davam etdirilməsi üçün "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə 66 milyon manat;
- Ümumilikdə 156,3 min nəfər əhalinin yaşadığı 26 yaşayış məntəqəsini birləşdirən, ümumi uzunluğu 420 kilometr olan 2 kəndlərarası, 5 şəhər və 10 kəndin ərazisindəki avtomobil yollarının əsaslı təmiri üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 70 milyon manat;
- Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisi məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 25 milyon manat;
- Naxçıvan, Şərur, Culfa, Ordubad və Şahbuz şəhərlərində ümumilikdə 2164 mənzilli 92 yaşayış binasının tam, Naxçıvan, Culfa və Şərur şəhərlərində cəmi 3087 mənzilli 70 yaşayış binasının isə yalnız fasad hissəsinin əsaslı təmiri üçün müvafiq şəhər (rayon) icra hakimiyyətlərinə 15 milyon manat;
- Naxçıvan Muxtar Respublikasında ümumilikdə 640 yerlik 5, o cümlədən Naxçıvan şəhərinin Bulqan kəndində 100 yerlik, Ordubad rayonunun Dəstə kəndində 100 yerlik, Şərur şəhərində 100 yerlik, Culfa rayonunun Əbrəqunus kəndində 240 yerlik, Kəngərli rayonunun Qarabağlar kəndində 100 yerlik yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 20 milyon manat;
- Şəhərlərarası ictimai nəqliyyat parkının yenilənməsi məqsədilə ilkin mərhələdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə 53 milyon manat;
- Naxçıvan, Şərur, Culfa və Ordubad şəhərlərində ümumilikdə 122 yaşayış binasının 5335 mənzilinə xidmət göstərən 45 istilik qazanxanasının əsaslı təmiri üçün müvafiq şəhər (rayon) icra hakimiyyətlərinə 9 milyon manat ayrılıb.

Şübhə yoxdur ki, sərəncamda nəzərdə tutulan layihələrin icrası bütövlükdə muxtar respublikanın sosial-iqtisadi inkişafına yeni impuls verəcək və bölgədə ardıcıllıqla aparılan siyasətin yaratdığı vətəndaş məmnunluğunu daha da artıracaq.

*Mübariz ABDULLAYEV*

# Naxçıvanın yeni dirçəliş dövrü

Ötən dövrdə Naxçıvanda çoxlu sayda iqtisadi və sosal təyinatlı infrastruktur obyektlərinin istifadəyə verilməsi, möhkəm enerji təminatına nail olunması, həmçinin özəl sektorun davamlı şəkildə dəstəklənməsi muxtar respublikanın perspektiv inkişafı üçün fundamental zəmin formalaşdırıb. Hazırda əsas vəzifə bu bazaya əsaslanmaqla yeni strateji mərhələdə muxtar respublikanın davamlı inkişafını təmin etmək, iqtisadiyyatın rəqabətqabiliyyətliliyini artırmaq və sosial islahatlar xəttini daha da gücləndirməklə vətəndaş məmnunluğunun yüksəlməsinə nail olmaqdır. Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə Naxçıvana növbəti səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibəsində ifadə etdiyi fikirlərdən, həmçinin qatıldığı tədbirlərdən bir daha aydın olur ki, muxtar respublikada inkişaf dönməz xarakter alıb və hazırda Naxçıvan tarixinin yeni dirçəliş dövrünü yaşamaqdadır.






## Naxçıvanın təhlükəsizliyinin ikinci vacib məsələsi - etibarlı enerji təchizatı

Muxtar respublikanın dayanıqlı inkişafının və iqtisadi təhlükəsizliyinin strateji dayaqlarından biri enerji təminatının şaxələndirilməsi və müasir enerji infrastrukturunun formalaşdırılmasıdır. Prezident İlham Əliyev müsahibəsində həssas coğrafiyada yerləşən Naxçıvanın enerji təhlükəsizliyini fiziki təhlükəsizlikdən sonra ikinci vacib amil kimi səciyyələndirib.

Artıq “Naxçıvan Enerji” Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasının və Regional Rəqəmsal İdarəetmə Mərkəzinin, həmçinin “Çeşməbasar”, qapalı tipli “Naxçıvan” və “Babək” yarımstansiyalarının inşası başa çatdırılıb. Hazırda isə gücü 36 meqavat olan “Ordubad” və 15,6 meqavat gücündə “Tivi” su elektrik stansiyalarının, eləcə də “Çevirici” yarımstansiyalarının tikintisi davam etdirilir.

Bu işlərin davamlılığının təmin edilməsi məqsədilə 2024-cü il 23 dekabr tarixində imzalanmış sərəncamla muxtar respublikada yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər müəyyən edilib. 2025-ci il 5 avqust tarixində təsdiq olunmuş sərəncamla isə paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpasına dair 2026-2030-cu illəri əhatə edən Tədbirlər Planı qüvvəyə minib. Tədbirlər Planı şəbəkədə itkilərin azaldılmasına, enerji təchizatının fasiləsizliyinin və keyfiyyətinin yüksəldilməsinə hesablanıb.

Prezident İlham Əliyevin Naxçıvana budəfəki səfəri çərçivəsində Naxçıvan Sənaye Parkının təməli qoyulub. Eyni zamanda, bu parkın tərkib hissəsi olaraq 300 meqavat gücündə istilik elektrik stansiyası inşa ediləcək. “Biz elə etməliyik ki, Naxçıvanın davamlı və dayanıqlı enerji təminatı heç vaxt pozulmasın” deyən Prezident İlham Əliyev inşası nəzərdə tutulan istilik elektrik stansiyasının önəminə diqqət çəkərək vurğulayıb: “Onu bildirməliyəm ki, bu gün Naxçıvanın generasiya gücü təqribən 200 meqavatdır. Təkcə bir stansiya bunu 1,5 dəfə artıracaq. Təbii ki, bu stansiyanın iki məqsədi var: birincisi, Naxçıvan Muxtar Respublikasını dayanıqlı enerji ilə təmin etmək, ikincisi, ixrac məsələləridir”.

Naxçıvanda enerji istehsalının artırılmasının digər bir mənbəyi bərpaolunan enerji imkanlarından geniş şəkildə istifadə olunması perspektividir. Bu bölgədə Günəş enerjisinin potensialı çox böyükdür. Aparılan monitorinq və dəqiq təhlil əsasında Günəş elektrik enerjisinin istehsalı üçün Azərbaycan ərazisində ən əlverişli məkan Naxçıvandır. Buna görə artıq 600 hektardan çox ərazi müəyyən edilib və orada yüzlərlə meqavat gücündə Günəş elektrik stansiyalarının inşası nəzərdə tutulur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Naxçıvan şəhərində inşa edilən, ümumi gücü 50 MVt olan “Şəms 1” və “Qərbi Üfüq” Günəş Elektrik stansiyalarında görülən işlərlə tanış olublar. 25 MVt-lıq “Şəms 1” layihəsi müəyyən edilmiş bərpaolunan enerji mənbələri ərazisində 52 hektar sahədə həyata keçirilir. “CEİ Naxçıvan” MMC tərəfindən artıq 10 MVt gücündə Günəş panellərinin quraşdırılması başa çatdırılıb. Stansiyanın istismara verilməsindən sonra illik təxminən 57 milyon kilovat-saat elektrik enerjisinin istehsal olunacağı və 19 minə yaxın ev təsərrüfatının enerji ilə təmin ediləcəyi planlaşdırılır. Bununla da ildə təxminən 26 min ton karbon qazı emissiyasının qarşısı alınacaq və 12 milyon kubmetr təbii qaza qənaət ediləcək.

Gücü 25 MVt olan “Qərbi Üfüq” Günəş Elektrik Stansiyasında isə “Enerso” MMC tərəfindən topoqrafik işlər artıq tamamlanıb, geoloji tədqiqat işləri isə davam edir. Layihənin bərpaolunan enerji mənbələri ərazisi kimi müəyyənləşdirilmiş 50 hektar sahədə həyata keçirilməsi nəzərdə tutulur. Stansiyanın istismara verilməsindən sonra illik təxminən 61 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq və bu, 21 minə yaxın ev təsərrüfatının enerji ilə təmin olunmasına imkan verəcək. Eyni zamanda, ildə təxminən 26 min ton karbon qazı emissiyasının qarşısının alınacağı və 12 milyon kubmetr təbii qaza qənaət ediləcəyi proqnozlaşdırılır.

Qeyd edək ki, Azərbaycanda bərpaolunan enerji mənbələri üzrə qoyuluş gücü 2070 MVt-dır. Bunun da 108 MVt-ı, yəni 5.2 faizi Naxçıvanın payına düşür. “Şəms 1” və “Qərbi Üfüq” stansiyalarının istifadəyə verilməsi ilə bu rəqəm 158 MVt olacaq.

**2026-cı il 21 fevral tarixində imzalanmış sərəncamla “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı” təsdiqlənib, 24 fevral tarixində imzalanmış digər sərəncamla isə əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər müəyyən olunub. Qəbul edilmiş qərarlarla Naxçıvanın su təsərrüfatının genişmiqyaslı şəkildə yenilənməsi nəzərdə tutulur. Tədbirlər çərçivəsində 41 nasos stansiyası və təzyiqli boru xətlərinin əsaslı təmiri, 20 kanalın yenidən qurulması, Salvartı su anbarının bərpası, Heydər Əliyev adına Su Anbarında əsaslı təmir işlərinin aparılması, eləcə də yeni suvarma infrastrukturunun yaradılması planlaşdırılır**

## Su təhlükəsizliyi və aqrar sahədə yeni model

Naxçıvanın təbii-coğrafi xüsusiyyətləri nəzərə alınmaqla su təhlükəsizliyinin təmin edilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə, su itkilərinin azaldılması və müasir suvarma infrastrukturunun yaradılması muxtar respublikanın uzunmüddətli inkişaf gündəliyinin strateji istiqamətlərindən biri kimi müəyyən edilib. 2026-cı il 21 fevral tarixində imzalanmış sərəncamla “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı” təsdiqlənib, 24 fevral tarixində imzalanmış digər sərəncamla isə əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər müəyyən olunub.

Qəbul edilmiş qərarlarla Naxçıvanın su təsərrüfatının genişmiqyaslı şəkildə yenilənməsi nəzərdə tutulur. Tədbirlər çərçivəsində 41 nasos stansiyası və təzyiqli boru xətlərinin əsaslı təmiri, 20 kanalın yenidən qurulması, Salvartı su anbarının bərpası, Heydər Əliyev adına Su Anbarında əsaslı təmir işlərinin aparılması, eləcə də yeni suvarma infrastrukturunun yaradılması planlaşdırılır.

Suvarma imkanlarının genişləndirilməsi məqsədilə 8563 metr özaxınlı boru xəttinin inşası, 2200 hektar ərazidə qapalı suvarma sisteminin, 5600 hektarda isə kollektor-drenaj şəbəkəsinin yaradılması nəzərdə tutulur. Kollektor-drenaj şəbəkəsinin 2200 hektarı Kəngərli, 3400 hektarı Şərur rayonlarını əhatə edəcək, Naxçıvan şəhəri üzrə müvafiq göstəricilər isə layihələndirmənin nəticələrinə əsasən müəyyənləşdiriləcək.

Proqramın mühüm istiqamətlərindən biri də əhalinin dayanıqlı və keyfiyyətli içməli su təminatının gücləndirilməsidir. Bu məqsədlə Sədərək və Kəngərli rayonlarının mərkəzlərində və bir sıra yaşayış məntəqələrində su təchizatı və kanalizasiya şəbəkələrinin inşası, Ordubad şəhərinin içməli sutəmizləyici qurğusunun əsaslı təmiri və Babək şəhərində yeni içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulub. Bununla yanaşı, 38 yaşayış məntəqəsində 40 subartezian quyusunun qazılması əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək mühüm tədbirlər sırasında yer alır.

Su təhlükəsizliyinin gücləndirilməsi ilə paralel olaraq muxtar respublikanın zəngin kənd təsərrüfatı potensialının daha səmərəli reallaşdırılması, aqrar sektorun modernləşdirilməsi və müasir istehsal modellərinin tətbiqi istiqamətində də strateji hədəflər müəyyən edilib. Dövlət başçısının 2026-cı il 20 may tarixində imzaladığı sərəncamla kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı təsdiq edilib. Proqrama əsasən, pilot layihə məhz Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək və dövlət dəstəyi ilə bir model kooperativ yaradılacaq. Sənəd, eyni zamanda, süd, ət, qoyunçuluq və digər istiqamətlər üzrə aqrar məhsul istehsalı kooperativlərinin və onların ittifaqlarının yaradılmasını və fəaliyyətinin dəstəklənməsini nəzərdə tutur. Bu yanaşma kiçik torpaq sahiblərinin bazara çıxış imkanlarının genişləndirilməsinə və emal zəncirinin gücləndirilməsinə xidmət edəcək. Nəzərdə tutulan işlərin Naxçıvanın inkişafına güclü təkan verəcəyinə əminliyini bildirən Prezident İlham Əliyev vurğulayıb: “...Bu yaxınlarda - bir neçə ay bundan əvvəl qəbul edilmiş kənd təsərrüfatının inkişafına dair Dövlət Proqramında da Naxçıvanın xüsusi yeri var, payı var, lazımi vəsait nəzərdə tutulub. O cümlədən kənd təsərrüfatının inkişafı üçün vacib olan amil - suvarma layihələri icra edilir. Bir çox artezian quyuları qazılacaq, müasir suvarma sistemləri quraşdırılacaq. Bu gün suvarılmayan torpaqlara su veriləcək. Beləliklə, muxtar respublikanın inkişafı daha sürətli və hərtərəfli olacaq”.

***Mübariz ABDULLAYEV***

# Prezident İlham Əliyevin Naxçıvan səfəri Türkiyə və Gürcüstan mediasının diqqət mərkəzində...

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində yer alan vacib məqamlar Türkiyə mediasında geniş əks-səda doğurub.

Qardaş ölkənin aparıcı xəbər agentlikləri, televiziya kanalları, xəbər portalları və qəzetləri Azərbaycan liderinin açıqlamalarını çoxmilyonlu auditoriyası ilə bölüşüb, həmçinin Prezident İlham Əliyevin müsahibəsindən sitatlar dərc edib.













“Türkiye” qəzeti “Zəngəzur dəhlizi genişlənir! Əliyev məsələni ətraflı izah etdi” sərlövhəli məqaləsində Azərbaycanın əsas hissəsini onun ayrılmaz parçası olan Naxçıvanla birləşdirən marşrutun Türkiyə və bütün Türk dünyası üçün əhəmiyyətini vurğulayıb.

Qəzet oxucularını Azərbaycan Prezidentinin bəyanatları ilə tanış edərək vurğulayıb ki, TRIPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) sadəcə dəmir yolu və avtomobil yolu deyil. Qəzet Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin açılmasına nail olunması ilə bağlı sözlərini sitat gətirərək qeyd edib: “Bu marşrut gələcəkdə fiber-optik kabel, elektrik xətləri və zərurət yarandıqda, neft və qaz boru kəmərləri üçün də istifadə edilə bilər”.

“Hürriyet”, “Milliyet”, “Star” və digər qəzetlər də öz oxucularına Prezident İlham Əliyevin bəyanatlarını təqdim edib.

“Anadolu” xəbər agentliyi “Azərbaycan Prezidenti Zəngəzur dəhlizini qiymətləndirir” sərlövhəli məqaləsində Zəngəzur dəhlizi məsələsinin həllini tapdığı 2025-ci il avqustun 8-də keçirilən tarixi Vaşinqton sammitinin nəticələrini xatırladıb.

Agentlik dövlət başçısının Ermənistan sərhədinə dəmir yolu xəttinin çəkilməsi və Naxçıvanda dəmir yolu işləri ilə bağlı fikirlərini abunəçiləri ilə bölüşüb. Qeyd olunub ki, Bakı bu nəqliyyat dəhlizi vasitəsilə yükdaşımalarını ildə azı 15 milyon tona çatdırmağı hədəfləyir.

Agentlik Prezident İlham Əliyevin Ermənistanın köhnəlmiş atom elektrik stansiyasının qonşu ölkələrə yaratdığı təhlükə ilə bağlı sözlərinə xüsusi diqqət yetirib. “Anadolu” Azərbaycan Prezidentinin bu barədə fikirlərini sitat gətirib: “....Çünki onların bu gün əsas enerji mənbəyi atom elektrik stansiyasıdır. Onun da idarəetməsi onların əlində deyil. Bu birincisi. İkincisi, bu stansiya köhnəlib və bütün bölgə üçün təhlükə mənbəyidir. Dəfələrlə Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq platformalarda bu məsələ ilə bağlı öz narahatlıqlarını ifadə ediblər. O stansiyanın ömrünün uzadılması sonsuz proses ola bilməz, gec-tez bağlanmalıdır. Təbii ki, o bağlanarsa, Ermənistan tamamilə enerji böhranına yuvarlanacaq. Ona görə, necə deyərlər, bir əlavə mənbənin olması ancaq xeyir gətirə bilər”.

Türkiyənin populyar televiziya kanalları “HaberGlobal”, “HaberTürk” və “Ulusal TV” də Azərbaycan Prezidentinin bəyanatları ilə bağlı reportajlar yayımlayıb, həmçinin müvafiq xəbərləri veb-saytlarında və sosial media səhifələrində yerləşdirib.

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri və səfər çərçivəsində müsahibəsində söylədiyi fikirlər, səsləndirdiyi bəyanatlar Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

“interpressnews.ge”, “1tv.ge”, “bpn.ge” informasiya portalları və televiziyaları dövlətimizin başçısının İkinci Qarabağ müharibəsində Ermənistanın təslim olması, Azərbaycanın enerji siyasəti, eləcə də Ermənistan AES-in region üçün yaratdığı təhlükələr barədə fikirlərindən materiallar dərc ediblər.

Azərbaycan Prezidentinin nitqindən gətirilən sitatda deyilir: “İkinci Qarabağ müharibəsinin başa çatması ilə əlaqədar Üçtərəfli Bəyanat imzalanmışdır - Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri. Əslində, bu, Ermənistan üçün kapitulyasiya aktı idi, çünki Ermənistan təslim oldu. O vaxt hələ işğal altında olan, - müharibə yolu ilə hələ biz o bölgələri azad etməmişdik, - Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Təbii ki, Ermənistan bunu könüllü etməmişdir, biz onu məcbur etdik. Kimisə müharibə şəraitində məcbur edirsənsə, deməli, həmin o tərəf kapitulyasiyaya uğrayır. Yəni bu termində hər hansı bir alçaldıcı, yaxud da ki, təhqiramiz bir məna axtarmaq lazım deyil. Bu, sadəcə olaraq, reallıqdır”.

Digər materiallarda Prezident İlham Əliyevə istinadla deyilir ki, Azərbaycan Avropa bazarına elektrik enerjisi tədarük etmək istəyir və bunun yeganə yolu Gürcüstandan və Türkiyədən keçir: “Yerləşdiyimiz bölgədə bizdən başqa bu qədər enerji ilə, istər neft-qaz, istər elektrik enerjisi ilə təmin olunan ikinci ölkə yoxdur. Qonşu ölkələrə ixrac imkanlarımızı genişləndirərək biz, eyni zamanda, Avropa bazarına da çıxacağıq. Çünki biz indi Avropaya neftimizlə, qazımızla çıxmışıq. Ancaq biz elektrik enerjisi ilə də çıxmaq istəyirik. Bu gün yeganə marşrut Gürcüstan, Türkiyə, ondan sonra Avropa marşrutudur. Bunu biz genişləndirməliyik. O cümlədən Qara dəniz enerji kabelinin layihəsinin texniki-iqtisadi əsaslandırılması hazırdır. Amma ikinci xətt olsa, bu ancaq bizim gücümüzü artıracaq. Özü də yəqin ki, siz də xatırlayırsınız, hələ 2024-cü ilin noyabrında COP29 zamanı Qazaxıstan, Özbəkistan prezidentləri və mən Xəzərin dibi ilə elektrik kabelinin çəkilişini razılaşdırdıq, saziş imzaladıq. Yəni ona da biz hazır olmalıyıq”.

# Dünyanın 50 ən yaxşı turizm məkanlarından biri - möcüzəli və qədim diyar...

## İlham Əliyev: Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir




Möcüzəli diyar adlandırılan Naxçıvan yalnız qədim tarixi ilə şöhrət tapmayıb. Bölgə həmçinin böyük turizm imkanlarına malikdir ki, bunu da şərtləndirən çoxsaylı amillər sadalamaq mümkündür. Əlamətdar haldır ki, Naxçıvanın turizm potensialı bütün dünyada tanınır. Londonda nəşr olunan "Wanderlust" jurnalında Naxçıvan Muxtar Respublikası dünyanın ən yaxşı 50 turizm mərkəzindən biri kimi qeyd olunub.

Son illərdə muxtar respublikada geniş imkanlar nəzərə alınmaqla, turizm sektorunun inkişafına böyük diqqət göstərilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilən 11 prioritetdən biri məhz turizmin inkişafı ilə bağlıdır. Məqsəd regionun turizm cəlbediciliyini artırmaqla həm dünyada ölkəmizin, mədəniyyətimizin daha geniş miqyasda təbliğinə nail olmaq, həm də muxtar respublikanın gəlir imkanlarını artırmaq, bölgədə özəl sektorun inkişafını dəstəkləmək və əhalinin məşğulluğunu artırmaqdır. Prezident İlham Əliyev bu günlərdə Naxçıvana səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibəsində Naxçıvanın geniş turizm imkanlarına malik olmasına diqqət çəkərək vurğulayıb: "Digər vacib sahə, - yəni o sahə də bu gün səfərimin proqramında öz əksini tapmışdır, - Naxçıvanın tarixi-mədəni abidələrinin qorunmasıdır. Bildiyiniz kimi, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir. Naxçıvan qədim Atabəylər dövlətinin paytaxtı olub və o dövrə, ondan sonrakı dövrə aid olan bir çox abidələr dünya əhəmiyyətli abidələrdir".



### Qədim diyarın zəngin turizm cəlbediciliyi

Naxçıvanın turizm cəlbediciliyi dedikdə yalnız hansısa bir istiqaməti nəzərdə tutmaq doğru olmazdı. Bu diyar tarixi, çoxsaylı abidələri, zəngin flora və faunası, özünəməxsus ənənələri, insanların məişət tərzi ilə başdan ayağa turizm cəlbediciliyi ilə fərqlənən bir məkandır. Naxçıvanın turizm potensialı dedikdə ilk növbədə onun əsrarəngiz təbiəti, dağları, çəmənləri göz önündə canlanır. 200-dən çox mineral bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Azərbaycanın nadir təbiət guşəsi sayılır. Buranın flora və faunanın nadir növləri respublikamızın "Qırmızı kitabı"na daxil edilib və xüsusi mühafizəyə alınıb. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir. Qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur.

Tarix-mədəniyyət abidələri ilə zənginliyi turistləri bu qədim diyara cəlb edən əsas amillərdən biridir. İndiyədək muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılaraq qeydiyyata alınıb.

Naxçıvan həmçinin şəfa diyarı kimi tanınır. Qədim diyarda müalicə turizminin inkişafına da xüsusi diqqət yetirilir. Buradakı bənzərsiz təbii şəfa mənbəyi olan Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün hər cür şərait yaradılıb. "Darıdağ" Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir.

Naxçıvanın zəngin turizm cəlbediciliyindən danışarkən zəngin, dadlı-duzlu mətbəxi də yaddan çıxarmaq olmaz. Bu yerlərin özünəməxsus mətbəxi turistləri cəlb edən əsas amillərdəndir. Bu baxımdan "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi qədim mətbəx nümunələrimizin, eləcə də milli mətbəximizə aid adət-ənənə və folklor nümunələrinin toplanması, qorunması, sistemli şəkildə öyrənilməsi, inkişaf etdirilməsi və təbliği istiqamətində səmərəli fəaliyyətini davam etdirir.

**Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilən 11 prioritetdən biri məhz turizmin inkişafı ilə bağlıdır. Məqsəd regionun turizm cəlbediciliyini artırmaqla həm dünyada ölkəmizin, mədəniyyətimizin daha geniş miqyasda təbliğinə nail olmaq, həm də muxtar respublikanın gəlir imkanlarını artırmaq, bölgədə özəl sektorun inkişafını dəstəkləmək və əhalinin məşğulluğunu artırmaqdır**

### Tarixi irs qorunur

Minilliklərə söykənən Naxçıvan tarixinin, zəngin memarlıq məktəbinin və mədəni irsinin qorunaraq gələcək nəsillərə çatdırılması həyata keçirilən dövlət siyasətinin ayrılmaz istiqamətidir. 2023-cü il 30 dekabr tarixində imzalanmış sərəncamla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi qərara alınıb və yubiley tədbiri muxtar respublikanın yaradılmasının 100 ilinin tamam olduğu 2024-cü il fevralın 9-da keçirilib. 2024-cü il 21 fevral tarixində imzalanmış sərəncamla "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Ordubadı açıq səma altında tarixi muzey kimi səciyyələndirmək daha doğru olardı. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın incisi adlandırdığı Ordubadın adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinir. Rayonun ərazisi Qədim Daş dövründən başlayaraq Son Orta əsrlərə qədərki dövrə aid abidələrlə zəngindir.

Dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan Möminə xatun türbəsində bərpa və konservasiya işlərinin aparılması üçün 2025-ci il 22 may tarixində ilkin olaraq 1 milyon manat, işlərin davam etdirilməsi məqsədilə isə 2026-cı il 16 mart tarixində əlavə 9,6 milyon manat vəsait ayrılıb. Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işləri ilə tanış olublar. Azərbaycan memarlığının görkəmli abidələrindən biri olan bu türbə 1186-cı ildə memar Əcəmi Naxçıvani tərəfindən inşa edilib. Tarixi mənbələrə əsasən, türbə Atabəylər Memarlıq Kompleksinin tərkib hissəsi olub. Dövrümüzədək kompleksdən yalnız bu abidə qorunub saxlanılıb. Abidənin ümumi hündürlüyü 34 metr olub. Lakin sonralar xarici örtüyünün 8 metrlik hissəsi dağıldığından hazırda onun hündürlüyü təxminən 26 metrdir. Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Möminə xatun türbəsi 2001-ci ildə dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət mühafizəsinə götürülüb. 1998-ci ildə isə UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilib.

Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmçinin Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışında iştirak ediblər. Abidə kompleksi böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin zəngin memarlıq irsini daha müasir yanaşma əsasında təqdim etmək məqsədilə yaradılıb və heç şübhəsiz ki, Naxçıvanın turizm cəlbediciliyinin artmasında öz rolunu oynayacaq. Qeyd edək ki, 2025-ci il 18 sentyabr və 30 dekabr tarixlərində imzalanmış sərəncamlarla memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması və görkəmli memarın 900 illik yubileyinin qeyd olunması qərara alınıb. Bu qəbildən olan işlərin önəminə diqqət çəkən Prezident İlham Əliyev "Bütün bu məsələlər böyük əhəmiyyət daşıyır. Çünki təbii ki, sosial-iqtisadi inkişaf, enerji təhlükəsizliyi vacib məsələlərdir. Ancaq bütün bu görülən işlərin təməlində bizim milli kimliyimiz dayanır, milli ruhumuz dayanır, mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, tariximiz dayanır. Azərbaycan xalqı xoşbəxt xalqdır. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edə bilərik", - deyə bildirib.

*Mübariz FEYİZLİ*

# Əməyin təhlükəsizliyi sahəsi üzrə yeni dövlət standartları qəbul edilib

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən əməyin təhlükəsizliyi sahəsini əhatə edən 5 yeni dövlət standartı qəbul edilib.

AZSTAND-dan bildirilib ki, yeni dövlət standartları aşağıdakılardır:

-AZS EN 355:2026 "Hündürlükdən yıxılmaya qarşı fərdi mühafizə vasitələri. Enerji udma qurğuları";

-AZS QOST 12.4.024:2026 "Əməyin təhlükəsizliyi standartları sistemi. Vibrasiyadan qoruyan xüsusi ayaqqabılar. Ümumi texniki tələblər";

-AZS QOST 12.4.072:2026 "Əməyin təhlükəsizliyi standartları sistemi. Sudan, neft yağlarından və mexaniki təsirlərdən qoruyan, qəlibləmə üsulu ilə hazırlanmış rezin xüsusi çəkmələr";

-AZS QOST 12.4.124:2026 "Əməyin təhlükəsizliyi standartları sistemi. Statik elektrikdən qoruma vasitələri. Ümumi texniki tələblər";

-AZS QOST 12.4.177:2026 "Əməyin təhlükəsizliyi standartları sistemi. Ayaqları deşilmədən qoruyan fərdi mühafizə vasitələri. Deşilmə əleyhinə xüsusiyyətlər üzrə ümumi texniki tələblər və sınaq metodu".




Yeni dövlət standartlarının qəbul edilməsində məqsəd fərdi mühafizə vasitələrinin keyfiyyət və təhlükəsizlik göstəricilərini artırmaq, istehsalat risklərini azaltmaq, iş yerlərində təhlükəsiz əmək şəraitinin təmin olunmasına və əməyin mühafizəsi sahəsində beynəlxalq təcrübənin tətbiqinə töhfə verməkdən ibarətdir.

Qeyd edək ki, sözügedən dövlət standartları 2023-2025-ci illər üçün "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair Dövlət Proqramı"na daxil olan "Fərdi mühafizə vasitələrinin təhlükəsizliyi haqqında milli texniki reqlament"in istinad standartları siyahısına daxildir.

Yeni dövlət standartı layihələri AZSTAND tərəfindən "Əməyin Mühafizəsi Mərkəzi" PHŞ-nin bazasında təsis edilən "Əmək sahəsində" standartlaşdırılma üzrə Texniki Komitənin (AZSTAND/TK 21) təqdimatı əsasında qəbul olunub və Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

# Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan yeni enerji dəhlizinin yaradılmasına dair danışıqlar aparır

Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan hökumətləri elektrik enerjisinin yerüstü tranzit dəhlizinin yaradılması ilə bağlı danışıqlar aparır.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin müavini İnqa Pxaladze deyib.



"Bu, iqtisadi cəhətdən çox vacib və maraqlı təşəbbüsdür. Belə ki, tranzitlə yanaşı, Gürcüstan öz elektrik enerjisini də ixrac edəcək və bu, öz növbəsində yerli biznesi, ölkədə energetika sahəsinin yüksək səviyyədə inkişafını dəstəkləyəcək", - deyə o bildirib.

Nazirin sözlərinə görə, yeni təşəbbüs istənilən maraqlı ölkədən, ilk növbədə qonşu ölkələrdən elektrik enerjisinin Gürcüstan vasitəsilə Avropaya çatdırılmasını təmin edəcək.



# BTQ Qlobal Cənub Gənclər Platforması ilə əməkdaşlığı müzakirə edib

Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı və Qlobal Cənub Gənclər Platformasının (GSYP) birgə tərəfdaşlığı ilə 12 Avqust - Beynəlxalq Gənclər Günü münasibətilə keçirilən geniştərkibli videokonfransda əməkdaşlıq müzakirə olunub.

Bu barədə BTQ-dən məlumat verilib.

Virtual görüş Qlobal Cənubun gənc liderlərinin beynəlxalq müstəvidə fəaliyyətini əlaqələndirmək və müştərək beynəlxalq layihələri müzakirə etmək məqsədi daşıyıb.

Görüş zamanı tərəflər təmsil etdikləri qurumların fəaliyyət istiqamətləri və prioritetləri barədə məlumat vermiş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Onlayn konfransda 20 fərqli ölkədən müxtəlif gənclər təşkilatlarının üzvləri, rəhbərləri və BMT İnkişaf Proqramının məsləhətçiləri iştirak ediblər.

Müzakirələr çərçivəsində BTQ və GSYP arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi imkanları, gələcək perspektivlər, eləcə də birgə təşəbbüslərin həyata keçirilməsi məsələləri nəzərdən keçirilib. Tərəflər qarşılıqlı maraq kəsb edən istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi və davamlı əlaqələrin yaradılmasının əhəmiyyətini qeyd ediblər.

Görüşdə həmçinin gələcəkdə mühüm qlobal tədbirlərdə birgə təşəbbüslərin həyata keçirilməsi və digər fəaliyyətlərin təşkili imkanları müzakirə olunmuş, mümkün əməkdaşlıq formatları barədə ilkin fikir mübadiləsi aparılıb.

Tərəflər gənclərin beynəlxalq proseslərdə fəal iştirakının təşviqi, müxtəlif regionlardan olan gənclər arasında əlaqələrin gücləndirilməsi və onların qlobal əhəmiyyətli məsələlər üzrə dialoqa cəlb olunması istiqamətində birgə təşəbbüslərin həyata keçirilməsi perspektivlərini müzakirə ediblər.

# Təbii fəlakətlər və yaxud bəşəriyyətin kabusu

Təbii fəlakətlər - yanğınlar, zəlzələlər, torpaq sürüşmələri, qasırğalar, sel və daşqınlar insanlar üçün hər zaman ciddi sınaq olub. Günümüzdə təbii fəlakətlərlə bağlı narahatlıqların daha ciddi şəkildə ifadə olunması isə ekstremal təbiət hadisələrinin intensivliyinin getdikcə artmasından qaynaqlanır. Mütəxəssislərin qənaətinə görə, sürətli sənaye inkişafı iqlim dəyişmələrinə böyük təsir göstərir. Beləliklə, qlobal istiləşmə yüksək həddə çatıb. Bunun nəticəsi olaraq təbiətin harmoniyasının, ekosistemin pozulması ağır fəsadlara yol açır və biz bunu getdikcə daha çox hiss edirik. Bir sıra hallarda qlobal istiləşməni və onun yaratdığı quraqlığı bütün həyatı məhv edən səssiz ölümə bənzədirlər və təəssüf ki, burada həqiqət payı çox yüksəkdir.

## Hər tərəfdən səslənən həyəcan siqnalı

Təbii fəlakətlərin vurduğu ziyan ehtimal olunandan 10 dəfə çoxdur. Bu məlumat BMT-nin Fəlakət Riskinin Azaldılması Ofisinin hesabatında yer alır. Sənəddə göstərilir ki, təbii fəlakətlər təhsil, daşınmaz əmlak və səhiyyə sektorlarına ciddi ziyan vurur. Bura zəlzələlər, daşqın və torpaq sürüşmələri və s. daxildir.

BMT xəbərdarlıq edib ki, qazıntı yanacaqlarından asılılıq səbəbindən iqlimlə bağlı fəlakətlər bəşəriyyətin kabusuna çevrilir. Bu barədə qurumun son məlumatlarının birində bildirilib. Təşkilatın iqlim dəyişiklikləri üzrə icraçı katibi Saymon Still açıqlamasında vurğulayıb: "İqlim fəlakəti ilə bağlı həyəcan siqnalı artıq hər tərəfdən səslənir. İqlim böhranının dəhşətli fəsadları həm insanlar, həm də iqtisadiyyatlar üçün milli fövqəladə hallar səviyyəsinə çatır".

BMT qeyd edib ki, Avropada 250 min hektardan çox meşə ərazisi yanıb, 2026-cı ilin əvvəlindən bəri 1254 yanğın qeydə alınıb. İsti hava dalğaları nəticəsində Fransa, İspaniya və Avropanın digər yerlərində rekord qıran meşə yanğınları baş verir, onlar kütləvi təxliyələrə səbəb olur, regional və milli iqtisadiyyatlara zərbə vurur. Şimali Afrikada 49 dərəcə selsiyə yaxınlaşan temperatur həyatı və dolanışıq vasitələrini ciddi təhlükə altına alır, xəstəxanalar və enerji sistemləri yüksək gərginlik altında qalır. Çilidə ölümcül fırtınalar evləri və həyatları məhv edib. Yaponiyada isə temperatur indiyə qədər qeydə alınan ən yüksək həddə - 40 dərəcəyə çatır.

Saymon Still bildirib ki, bəşəriyyət qazıntı yanacaqlarından təmiz enerjiyə çox yavaş keçdikcə və meşələri kifayət qədər qoruya bilmədikcə, sürətlə istiləşən dünyada bu spiralvarı fəlakətlər milyardlarla insanın yaşadığı reallığa çevrilir. O, bu fəlakətin səbəbinin elmi cəhətdən birmənalı olduğunu izah edərək vurğulayıb ki, bəşəriyyətin külli miqdarda kömür, neft və qaz yandırması nəticəsində yaranan qlobal istiləşmə uzunmüddətli isti dalğaları, şiddətli daşqınları və fırtınaları daha intensiv hala gətirir. "Nə edilməli olduğu da eyni dərəcədə aydındır: kömür, neft və qazı daha tez müddətdə geridə qoymaq, bərpa olunan enerji mənbələrini genişləndirmək və ən çox təsirə məruz qalan yerlərdə insanları qorumaq lazımdır", -deyə icraçı direktor əlavə edib.

Ümumdünya Meteorologiya Təşkilatı bildirib ki, etibarlı monitorinq, proqnozlaşdırma, sərhədlərarası məlumat mübadiləsi və erkən xəbərdarlıqlar həyatları, dolanışıq vasitələrini və ekosistemləri qorumaq üçün çox vacibdir.

Təşkilat "Hamı üçün erkən xəbərdarlıqlar" təşəbbüsü vasitəsilə standartlaşdırılmış çərçivələrin təşviqi, qarşılıqlı fəaliyyətin gücləndirilməsi və yanğın hava xidmətləri üzrə beynəlxalq əməkdaşlığın inkişafı yolu ilə bu səyləri irəli aparır.



## Avropa iqtisadiyyatı üçün ciddi təhlükə

Hazırda Avropa təbii fəlakətlərin, xüsusilə də meşə yanğınlarının sərt sınağı ilə çarpışmadadır Niderlandda yerləşən "Triodos Bank"ın araşdırmasına görə, bu yay "qoca qitə"də müşahidə olunan anomal hava şəraiti və uzunmüddətli quraqlıq Avropa İttifaqı (Aİ) iqtisadiyyatına təxminən 180 milyard avro zərər vuracaq və əvvəlcədən proqnozlaşdırılan iqtisadi artımı aradan qaldıracaq.

"Triodos Bank"ın Avropada anomal isti hava şəraitinin iqtisadi təsirləri ilə bağlı hazırladığı "İsti Yay İqtisadiyyatı" adlı araşdırmada həyəcan doğuran faktlar yer alır. Araşdırmada qeyd olunub ki, Avropada rekord istilər və uzunmüddətli quraqlıq insan sağlamlığı və ekosistemlərlə yanaşı, kənd təsərrüfatına, enerji sektoruna, nəqliyyata və əmək məhsuldarlığına da mənfi təsir göstərir.

"Triodos Bank"ın yeni təhlilinə görə, yay aylarında müşahidə olunan ekstremal hava şəraiti 2026-cı ildə Aİ-nin Ümumi Daxili Məhsulunu (ÜDM) təxminən 1 faiz azalda bilər. Bu, təxminən 180 milyard avroya bərabərdir və nəticədə il üzrə əvvəlcədən proqnozlaşdırılan iqtisadi artım faktiki olaraq aradan qalxacaq", - deyə bildirilib.

Araşdırma göstərib ki, həddindən artıq istilərin iqtisadiyyata ən böyük təsiri əmək məhsuldarlığının azalmasından qaynaqlanır. Qeyd olunub ki, temperatur təxminən 25-30 dərəcəni keçdikdən sonra işçilərin məhsuldarlığı nəzərəçarpacaq dərəcədə azalır. Bu təsir xüsusilə fiziki güc tələb edən işlərdə çalışanlara, açıq havada işləyənlərə və kondisioner sistemi olmayan iş yerlərində çalışanlara daha ciddi təsir göstərir. Ekstremal istilər ofis işçilərinin fəaliyyətinə və yuxu keyfiyyətinə də mənfi təsir göstərə, isti günlərdə işə çıxmama hallarının artmasına səbəb ola bilər. 2026-cı ilin yayında yüksək temperaturun əmək məhsuldarlığını aşağı salmasının Aİ-nin ÜDM-də orta hesabla 0,6 faiz itkiyə səbəb olacağı proqnozlaşdırılır.

Araşdırmada anomal istilər və quraqlıq səbəbindən Aİ-də kənd təsərrüfatı istehsalının 3-7 faiz azalmasının gözlənildiyi bildirilib. Ərzaq qiymətlərinin artması, enerji istehsalında məhdudiyyətlər, elektrik enerjisinin bahalaşması, həmçinin avtomobil yolları, dəmir yolları və daxili su yollarında yaranan fasilələrin iqtisadi zərəri daha da artırdığı qeyd edilib.

Araşdırmaya görə, həddindən artıq isti havadan ən çox Fransanın təsirlənəcəyi gözlənilir. Təkrarlanan isti hava dalğalarının ölkənin ÜDM-ni təxminən 1,4 faiz azaldacağı və bunun nəticəsində Fransa iqtisadiyyatının illik 0,6 faiz daralmasına səbəb olacağı proqnozlaşdırılır.

İtaliya, İspaniya və Belçikada da əhəmiyyətli iqtisadi itkilərin gözlənildiyi bildirilib.

Yeri gəlmişkən, Avropa Komissiyası bu il Aİ iqtisadiyyatının 1,1 faiz artacağını proqnozlaşdırmışdı.

## On minlərlə insanın həyatına son qoyulur

Təbii fəlakətlər yalnız ölkələrin iqtisadiyyatına ağır zərbə vurmaqla sonuclanmır. Bundan həmçinin insanların özləri də təsirlənirlər və onların həyatı risk altına düşür. Bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.

Məlumatda qeyd olunub ki, İspaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Hollandiyadakı dövlət qurumları və tədqiqat institutlarının məlumatlarına görə, regionda istidən ölənlərin sayı 25 mini keçib .

Ən çox ölüm halı Almaniyada qeydə alınıb. Robert Kox İnstitutunun məlumatına görə, aprel ayından bəri Almaniyada istidən 11 min 900 nəfər ölüb. Anomal istilər nəticəsində yaranan meşə yanğınlarının fəsadları Fransa və İspaniyada fəlakətli həddə çatıb. Təbii fəlakət səbəbindən indiyədək hər iki ölkədə ümumilikdə 366 mindən çox insan təhlükəsiz bölgələrə təxliyə olunub. Fransa Prezidenti Emmanuel Makron yaranmış vəziyyəti ölkənin İkinci Dünya müharibəsindən bəri qarşılaşdığı ən ağır sülh dövrü böhranı və təxliyə prosesi adlandırıb.

Dost Pakistanda iyunun 26-dan etibarən davam edən güclü yağışlar və onların yaratdığı fəsadlar nəticəsində azı 109 nəfər ölüb, 362 nəfər yaralanıb. Pakistan Milli Fəlakətlərin İdarə Edilməsi İdarəsinin yaydığı məlumatda bildirilir ki, güclü yağışların ən çox təsiri ölkənin şimal-qərbində yerləşən Xayber-Paxtunxva əyalətində qeydə alınıb. Musson yağışları nəticəsində həmin əyalətdə 55 nəfər həyatını itirib. Şərqi Pəncab əyalətində isə 36 ölüm faktı qeydə alınıb. Daşqın suları nəticəsində təxminən 800 tikiliyə ziyan dəyib, onlardan 200-dən çoxu tamamilə dağılıb. İyunun sonundan etibarən ölkə üzrə 148 xilasetmə əməliyyatı keçirilib və 4 minə yaxın insan təhlükəli ərazilərdən çıxarılıb.

Qeyd edək ki, Pakistanda musson mövsümü adətən iyundan sentyabr ayınadək davam edir. Bu dövrdə kənd təsərrüfatı üçün əhəmiyyətli olan intensiv yağışlar müşahidə edilsə də, güclü leysanlar tez-tez daşqınlara və digər təbii fəlakətlərə səbəb olur.

Əfqanıstanda dörd ay ərzində daşqın və torpaq sürüşmələri nəticəsində 351 nəfər həlak olub, 436 nəfər yaralanıb. Əfqanıstanın Milli Fəlakətlərin İdarə Edilməsi İdarəsindən bildirilib ki, təbii fəlakətlər nəticəsində 2321 ev dağılıb, 8036 evə ziyan dəyib, 24 min 35 ailə zərər çəkib. Həmçinin 644 kilometr kənd yolu yararsız vəziyyətə düşüb, 35 min 973 akr əkin sahəsi su altında qalıb.

## Qlobal iqtisadiyyata dəyən ziyan

2025-ci ildə təbii fəlakətlərin qlobal iqtisadiyyata vurduğu ümumi ziyan 224 milyard dollar təşkil edib. Bu barədə dünyanın ən böyük təkrarsığorta şirkəti olan "Munich Re"nin hesabatında bildirilir. Sığortalanmış zərərin həcmi isə təxminən 108 milyard dollar təşkil edib, bu da əvvəlki ildəki 147 milyard dollarla müqayisədə çoxdur. Beləliklə, sığortalanmış zərərlərin ümumi zərər həcmində payı təxminən 48 faiz təşkil edib.

Eyni zamanda, son 10 ildə ilk dəfə olaraq ABŞ-da böyük qasırğa müşahidə edilməyib.

Ötən il dəyən ziyan baxımından ən böyük təbii fəlakət Kaliforniyada baş verən meşə yanğınları olub. Bu yanğınlar nəticəsində 30 nəfər həlak olub və Amerika iqtisadiyyatına 53 milyard dollar ziyan dəyib (təxminən 40 milyard dolları sığortalanıb).

Myanmada 2025-ci ilin mart ayında baş verən və təxminən 4500 insanın ölümünə səbəb olan zəlzələ 12 milyard dollar iqtisadi itkiyə səbəb olsa da, bu məbləğin yalnız kiçik bir hissəsi sığortalanıb.

Məlumata görə, təbii fəlakətlər ötən il təxminən 17.2 min insanın ölümünə səbəb olub. 2024-cü ildə isə bu rəqəm 11 min olub. Son 10 ildə təbii fəlakətlər nəticəsində orta hesabla 17.8 min, son 30 ildə isə 41.9 min nəfər həlak olub.

## Qlobal təhdid güclü qlobal həmrəylik tələb edir

Sadalanan faktlar son vaxtlarda dünyada baş verən təbii fəlakətlərin kiçik bir qismini əhatə edir. Fəsadlar və reallıqlar daha dəhşətlidir. Ən sarsıdıcı məqam ondan ibarətdir ki, beynəlxalq təşkilatlar və mütəxəssislər iqlim dəyişmələrinin davamlı şəkildə sürətləndiyinə diqqət çəkməklə daha məyusedici proqnozlar verirlər. BMT-nin yaydığı hesabatda bildirilir ki, 2025-2030-cu illər arasında şimal yarımkürəsində ekstremal istilər 2 dəfə artacaq. Öz növbəsində Arktikada buz örtüyünün sürətlə azalması qlobal hava sistemlərinə təsir edir.

BMT izlənilən proseslərə istinad etməklə ölkələri karbon emissiyalarını 2030-cu ilədək 45 faiz azaltmağa çağırıb. Hesabatda Çinin və Hindistanın xüsusi rolu qeyd olunur. Təbiət fəlakətlərinin iqtisadi dəyərinin ildə 400 milyard dolları keçəcəyi proqnozlaşdırılır.

İqlim dəyişmələri qlobal təhdiddir. Bəs vəziyyətdən çıxış yolu varmı? Əlbəttə, hansısa vasitələrlə prosesi qısa müddətdə tam dayandırmaq ehtimalı zəifdir. Ən vacib olan isə dünyanın qlobal təhdid qarşısında güclü qlobal həmrəylik nümayiş etdirməsidir. İqlim dəyişmələrindən hamı, bütün ölkələr təsirlənirlər. Ona qarşı mübarizə də birlikdə aparılmalıdır. Burada güclü sənaye fəaliyyətləri ilə iqlim dəyişmələrinə ciddi təsir göstərən dövlətlərin məsuliyyəti isə daha böyükdür...

*Mübariz ABDULLAYEV*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**

# Kiçik addımlar, böyük nəticələr

## Təbiətə münasibətimiz gələcəyimizi müəyyən edir...

Ekologiya yalnız ağacların, çayların və meşələrin qorunması demək deyil. Bu anlayış insanın sağlamlığından tutmuş, iqtisadiyyatın gələcəyinə qədər çox geniş bir sahəni əhatə edir. Təmiz hava, keyfiyyətli su, münbit torpaq və sağlam ekosistem təhlükəsiz həyatın əsas şərtləridir. Azərbaycan da bu böyük ekoloji çağırışlardan kənarda deyil. Ölkəmiz coğrafi baxımdan olduqca zəngin təbiətə malikdir.

Yer kürəsində mövcud olan 11 iqlim tipinin 9-u Azərbaycanda müşahidə olunur. Ölkə ərazisinin 12 faizi meşələrlə örtülüdür. Ərazinin 10,3 faizi isə xüsusi mühafizə olunan təbiət ərazilərinin payına düşür. Hazırda Azərbaycanda 12 milli park, 10 dövlət təbiət qoruğu və 24 təbiət yasaqlığı fəaliyyət göstərir.

### Azərbaycan təbiətinin üzləşdiyi sınaqlar

Təbiətin zənginliyi ekoloji problemlərin olmadığı anlamına gəlmir. Əksinə, iqlim dəyişmələri yeni riskləri daha da artırır. Su ehtiyatlarının azalması, torpaqların eroziyası və şoranlaşması, tullantıların idarə olunması, atmosfer havasının çirklənməsi və biomüxtəlifliyin qorunması qarşıda duran əsas məsələlərdəndir. Xəzər dənizində su səviyyəsinin aşağı düşməsi də narahatlıq doğuran amillərdən biridir. Rəsmi məlumatlarda da Xəzərin səviyyəsinin son iki əsrdə müşahidə olunan tarixi minimuma yaxınlaşdığı bildirilir.

Bu mənzərə bir həqiqəti göstərir: ekoloji problemlər artıq gələcəyin məsələsi deyil. Onlar bu günün reallığıdır.

### Rəqəmlər nə deyir?

Statistika problemin miqyasını daha aydın göstərir. 2025-ci ildə Azərbaycanda 4 milyon 426,4 min ton tullantı yaranıb. Bu, əvvəlki illə müqayisədə 1,4 faiz çoxdur. Tullantıların 73,5 faizini bərk məişət tullantıları təşkil edib. Həmin il 3 milyon 251,2 min ton bərk məişət tullantısı yaranıb. Onun 82,1 faizi poliqonlara daşınıb. 17,4 faizi isə enerji əldə etmək məqsədilə istifadə olunub. Məişət tullantılarının yandırılması nəticəsində 222,1 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Təhlükəli tullantıların həcmi də diqqət çəkir. 2025-ci ildə 272,2 min ton təhlükəli tullantı yaranıb. Bunun 71,9 faizi mədənçıxarma sənayesinin payına düşüb.

Atmosferlə bağlı rəqəmlər isə daha maraqlı mənzərə yaradır. 2025-ci ildə stasionar mənbələrdən havaya atılan zərərli maddələrin həcmi 15,4 faiz azalaraq 98 min tona düşüb. Lakin avtomobillərdən atmosferə atılan çirkləndiricilərin həcmi 12,8 faiz artaraq 959,8 min ton təşkil edib. Bu göstəricilər xüsusilə nəqliyyat məsələsinin aktuallığını ortaya qoyur. Deməli, ekoloji mübarizə yalnız zavod və müəssisələrdən ibarət deyil. Şəhərin küçəsində hərəkət edən avtomobillər də bu mübarizənin mühüm hissəsidir.









### COP29-dan sonra yeni mərhələ

Azərbaycanın iqlim gündəliyində COP29 xüsusi yer tutur. 2024-cü ildə Bakının mötəbər beynəlxalq iqlim tədbirinə ev sahibliyi etməsi ölkənin ekoloji məsələlərə beynəlxalq səviyyədə diqqətini də artırdı.

COP29 çərçivəsində yaşıl enerji, iqlim maliyyəsi və emissiyaların azaldılması kimi məsələlər geniş müzakirə edildi. Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvanda 2050-ci ilədək xalis sıfır emissiya zonalarının yaradılması ilə bağlı hədəflər açıqlanmışdı. Belə ki, Günəş və külək enerjisi layihələri bu strategiyanın əsas istiqamətlərindən idi.

### Ekologiya dövlət siyasətimizin mühüm istiqamətidir

Azərbaycanda ətraf mühitin qorunması dövlət siyasətinin prioritet istiqamətlərinin biri kimi müəyyənləşdirilib. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində beş əsas istiqamətdən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” adlanır. Burada yüksək keyfiyyətli ekoloji mühit və yaşıl enerji məkanı əsas məqsədlər kimi müəyyən edilib.

Dövlətin ekoloji siyasətində tullantıların idarə olunması, su ehtiyatlarının qorunması, yaşıllıqların artırılması, atmosfer havasının mühafizəsi, ekoloji təmiz nəqliyyatın təşviqi və bərpaolunan enerjidən istifadənin genişləndirilməsi xüsusi yer tutur. Azərbaycanın iqlim gündəliyində qarşıya qoyduğu hədəflər də kifayət qədər konkret xarakter daşıyır. Ölkə 1990-cı illə müqayisədə istixana qazı emissiyalarını 2030-cu ilədək 35 faiz, 2050-ci ilədək isə 40 faiz azaltmağı hədəfləyir.

### Yaşıl gələcək yalnız dövlətin işi deyil

Ekoloji siyasətin uğuru yalnız dövlət proqramları ilə ölçülmür. Bu prosesdə vətəndaşın davranışı da həlledicidir. Bir plastik qabı küçəyə atmaq kiçik addım kimi görünə bilər. Amma milyonlarla insan eyni məsuliyyəti göstərdikdə nəticə böyük olur.

Suya qənaət etmək, tullantıları çeşidləmək, ağacları qorumaq, ictimai nəqliyyatdan istifadə etmək və ətrafı çirkləndirməmək ekoloji mədəniyyətin sadə nümunələridir.

Təbiətə vurduğumuz zərər gec-tez insan həyatına qayıdır. Çirklənmiş hava sağlamlığa, su qıtlığı kənd təsərrüfatına, torpağın deqradasiyası ərzaq təhlükəsizliyinə, iqlim dəyişmələri isə bütövlükdə iqtisadiyyata təsir göstərir.

Ona görə ekologiya sadəcə təbiət mövzusu deyil. Bu, milli təhlükəsizlik, sağlamlıq və gələcək nəsillərin taleyi məsələsidir. Təbiəti qorumaq gələcəyi qorumaqdır. Bu gün əkilən ağac, təmiz saxlanılan çay və qənaətlə istifadə olunan hər damcı su gələcək nəsillərə əmanətimizdir.

*Yeganə BAYRAMOVA*

---

## Atəşkəs uzadılmasa, müharibə yenidən alovlanacaq

# Avqustun 17-dən sonra...

İyunun 18-də ABŞ ilə İran arasında əldə olunmuş 60 günlük atəşkəs razılaşmasının müddəti bitir. Yaxın Şərqdə müəyyən mənada sabitliyin əldə olunması və gələcək danışıqların detallarının müəyyənləşdirilməsi üçün əldə edilmiş bu müddətin artırılması gündəmdədir. Belə ki, Türkiyənin “Anadolu” agentliyinin Pakistan hökumətindəki mənbələrə istinadən yaydığı məlumata görə, ABŞ və İran arasında davam edən gərginlik fonunda mühüm diplomatik irəliləyiş əldə olunub. Vaşinqton və Tehran hazırkı atəşkəs rejiminin müddətini uzatmağa razılıq veriblər. Məlumata görə, tərəflər arasında qüvvədə olan 60 günlük atəşkəsin müddəti avqustun 17-də başa çatır. Lakin həm ABŞ, həm də İran vasitəçilərə atəşkəs rejiminin davam etdirilməsinə razı olduqlarını artıq bildiriblər.

### Yeni müqavilə gözlənilir...

Qeyd olunur ki, hazırda əsas müzakirə predmeti atəşkəsin hansı müddətə uzadılmasıdır. Vaşinqton və Tehran birbaşa danışıqlardan daha çox, vasitəçilər üzərindən mesaj mübadiləsini davam etdirirlər. Pakistan mənbələri bildirirlər ki, konkret müddətin müəyyənləşdirilməsi üçün diplomatik təmaslar gedir. Qeyd edək ki, bu razılaşmanın xüsusi əhəmiyyəti var. Çünki son aylarda ABŞ-İran qarşıdurması Yaxın Şərqdə təhlükəsizliklə yanaşı, dünya enerji bazarının əsas risk faktorlarından birinə çevrilib. Xüsusilə Hörmüz boğazının taleyi, İranın nüvə proqramı, sanksiyaların gələcəyi və regiondakı hərbi qüvvələrin fəaliyyəti danışıqların ən ağır mövzuları sırasında qalır.

Atəşkəs prosesinin arxasında Pakistanın vasitəçilik rolu xüsusilə diqqət çəkir. İslamabad son aylarda Vaşinqtonla Tehran arasında diplomatik kanalın saxlanmasına çalışan əsas paytaxtlardan biri kimi çıxış edir. Hazırkı 60 günlük atəşkəs də “İslamabad Memorandumu” çərçivəsində qüvvəyə minib. Atəşkəsin davam etdirilməsi enerji bazarları üçün də mühüm siqnaldır. Əvvəlki atəşkəs xəbərlərindən sonra Brent və WTI markalı neftin qiymətlərində kəskin geriləmə müşahidə edilmişdi. Bu, bazarın ABŞ-İran qarşıdurmasının genişlənməsi və enerji daşımalarının pozulması riskinə nə qədər həssas olduğunu göstərmişdi.

Bununla belə, atəşkəs hələ yekun sülh demək deyil. ABŞ və İran arasında nüvə proqramı, Hörmüz boğazında gəmiçiliyin təhlükəsizliyi, iqtisadi sanksiyalar və regional təhlükəsizlik arxitekturası ilə bağlı ciddi fikir ayrılıqları qalır.

Siyasi mütəxəssislərin fikrincə, 17 avqustdan sonrakı mərhələ olduqca vacibdir. Həmin tarixədək atəşkəsin yeni müddəti rəsmiləşdirilməsə, müharibənin yeni fazasının başlaması qaçılmaz olacaq. Atəşkəsin uzadılması isə əsas müzakirə predmetləri olan Hörmüz boğazı və nüvə məsələsi müzakirələrində hər iki tərəfə vaxt qazandırır.

### Müharibə üç il uzanacaq?

Atəşkəsin uzadılması ilə bağlı razılığın əldə olunması xəbəri ilə yanaşı, müharibənin uzanması ehtimalı da irəli sürülür. Belə ki, İran bu münaqişədə önə çıxmaq və üstünlük qazanmaq üçün variantlardan biri kimi müharibəni Donald Trampın prezidentlik müddətinin sonuna qədər uzatmağı da düşünür. Bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun (İİKK) baş komandanının müşaviri, briqada generalı Məhəmməd Rza Nəğdi PBS-də bildirib.

“Baxın, bizə hücum etməyə cəsarət edilməməsi və təhlükəsizlik şəraitində yaşaya bilməyimiz üçün çəkindirmə əldə etməliyik. Bir yol bu müharibəni növbəti prezidentlik müddətinə qədər uzatmaq və elə bir ziyan vurmaqdır ki, əgər başqası İrana hücum etmək istəsə, bunun bədəlini ödəyəcəklərini bilsin”, - deyə Nəğdi bildirib.

İranın ticarət gəmilərinə hücumlarına gəldikdə isə general belə cavab verib: “Müharibədə təhlükə yaradan istənilən gəmiçilik zolağına nəzarət edə bilərik. Bu, beynəlxalq hüquqdur. Dünyanın istənilən yerində müharibə gedirsə, bu qanun tətbiq olunur.”

Xatırladaq ki, Donald Tramp “Axios”a bildirmişdi ki, Vaşinqton İranla danışıqlar aparır - amma bu heç də Vaşinqtonun dayanması anlamına gəlmir. ABŞ Tehrana iqtisadi təzyiq göstərir. Bundan bir müddət əvvəl ABŞ maliyyə naziri Skott Bessent iki tərəfin 30-60 günlük atəşkəs razılaşmasına gələ biləcəyini bildirmişdi.

“The Wall Street Journal”ın məlumatına görə, Tramp nüvə sazişi olmadan da müharibəyə son qoymağın mümkünlüyünü düşünür və Hörmüz boğazının açılmasını ABŞ-ın qələbəsi kimi təqdim edir.



### Yeni şərtlər...

Bu arada İran Hörmüz boğazının açılması üçün ABŞ-a şərtlərini çatdırıb. “Tasnim”in məlumatına görə, şərtlər ABŞ-a vasitəçilər vasitəsilə göndərilib. Bu barədə İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Möhsün Rzayi bildirib. Onun sözlərinə görə, Tehran Vaşinqtondan İrana qarşı hərbi əməliyyatlarına son qoymasını və ölkənin dondurulmuş aktivlərinin qaytarılmasını istəyir. Bundan əlavə, Rzayi bildirib ki, Livan və Qəzza zolağı da daxil olmaqla, bütün regionda hərbi əməliyyatlar dayandırılmalıdır.

Rzayi həmçinin yuxarıda göstərilən tələblərlə əlaqəsi olmayan digər şərtlərin də vasitəçilər xətti ilə ABŞ-a çatdırıldığını söyləyib. “ABŞ davranışını dəyişməyincə və İranın şərtlərini qəbul etməyincə, Hörmüz boğazı açılmayacaq”, - deyə o vurğulayıb.

### Tramp: ABŞ Hörmüz boğazına tam nəzarət edir...

Donald Tramp bəyan edib ki, ABŞ Hörmüz boğazına tam nəzarət edir. Amerika lideri qeyd edib ki, ABŞ-ın dəniz blokadası “polad divar” adlanır. Onun sözlərinə görə, ABŞ Silahlı Qüvvələri Hörmüz boğazına nəzarəti saxlayacaq. Bu barədə Prezident “Truth Social”da yazıb: “ABŞ Hörmüz boğazına tam nəzarət edir. Düşünürəm ki, biz bu nəzarəti saxlayacağıq. Dəniz blokadamız “polad divar” adlanır və İran bu barədə heç nə edə bilməz”.

Tramp həm də İranda inflyasiyanın 300 faizə çatdığını və ölkədə vəziyyətin pisləşdiyini yazıb. “Onların (İranın) nə donanması, nə də hava qüvvələri var, onlar hərbçilər maaşlarını almırlar, İİKK məğlub olub qaçır və onların “gücü” ən yaxşı halda qeyri-sabitdir! Onların pulu yoxdur - ölkələri “tükənib”. Onların əlində yalnız saxta əskinaslar və 300 faiz inflyasiya var və vəziyyət daha da pisləşir! İranın etdiyi tamamilə danışmaqdan ibarətdir və heç bir hərəkət yoxdur”.

Qeyd edək ki, Beynəlxalq Valyuta Fondu bu il İranda inflyasiyanın 69 faizə çatacağını gözləyir. Dünya Bankının məlumatına görə, ölkə üçün bu rəqəm 2025-ci ildə 42,2 faiz olub.

### Səfirlik işçiləri azaldılır...

CNN-nin məlumatına görə isə, bölgədə yeni müharibə fazası başlaya bilər. Nəşr mənbələrə istinadən xəbər verir ki, Dövlət Departamenti Yaxın Şərqdəki səfirliklərdə çalışan işçi heyətinin sayının azaldılması imkanlarını araşdırır. Mənbənin sözlərinə görə, Dövlət Departamenti, İranla müharibənin mümkün həlli əlamətlərinin olmaması fonunda, bölgədəki Amerika səfirliklərindən azaldılmış işçi heyəti ilə işləmək üçün planlar hazırlamağı xahiş edib. Qeyd olunur ki, bu planlarla bağlı yekun qərar verilməyib, lakin Yaxın Şərqdəki hadisələr Dövlət Departamentinin bölgədəki diplomatik nümayəndəliklərin tezliklə tam ştatlı fəaliyyətə başlamasını gözləmədiyini göstərir.

*SADİQ*

# Pit Heqset: ABŞ Latın Amerikası müttəfiqlərini BCM-dən çıxmağa çağırıb




ABŞ administrasiyası Latın Amerikası ölkələrindən Vaşinqtonun yaratdığı "Amerika Qalxanı" alyansında iştirak edən müttəfiqlərinin Roma Statutundan çıxmasını və Beynəlxalq Cinayət Məhkəməsini (BCM) tərk etməsini istəyir.

AZƏRTAC xəbər verir ki, bunu ABŞ-ın müdafiə naziri Pit Heqset Panamada çıxışı zamanı deyib.

"Ölkələrimiz öz suverenliyini və hərbçilərindən öz müdafiələri üçün istifadə etmək imkanını qoruyub saxlayırlar. Biz təhlükəsizliyimizə və vətəndaşlarımızın təhlükəsizliyinə təhdidlərdən müdafiə olunmaq hüququmuzdan heç vaxt imtina etməyəcəyik. Biz yalnız öz vətəndaşlarımız və konstitusiyamız qarşısında cavabdehik, seçilməmiş beynəlxalq bürokratlar qarşısında deyil", - deyə P.Heqset bildirib.

ABŞ müdafiə naziri alyansın bütün üzvlərini BCM-dən çıxmağa və məhkəmənin hökumətlərin və məhkəmələrin suverenliyini məhdudlaşdırmaq cəhdlərini rədd etməyə çağırıb.

P.Heqsetin sözlərinə görə, beynəlxalq sol qüvvələr və onları dəstəkləyən media BCM-in ABŞ hərbçilərinə və Vaşinqtonun tərəfdaşlarının keçirdiyi əməliyyatlara yurisdiksiyasını qanunsuz şəkildə genişləndirməyə çalışır.

"BCM-in qanunsuz şəkildə hakimiyyəti ələ keçirmək cəhdlərinin heç bir hüquqi əsası yoxdur. Bu istiqamətdə atdığımız addımlar silahlı münaqişə hüququnun normalarına tam uyğundur", - deyə nazir vurğulayıb.

O əlavə edib ki, BCM və digər beynəlxalq qurumlar ABŞ-nin səylərini zəiflətməyə çalışır, lakin əsl terrorçuları və diktatorları məsuliyyətə cəlb etmək üçün heç nə etmirlər. Heqset BCM-in ABŞ və onun tərəfdaşlarının milli suverenliyinə, konstitusiya səlahiyyətlərinə və milli maraqlarına təhlükə yaratdığını bildirib.

Qeyd edək ki, ABŞ administrasiyası artıq bir neçə dəfə BCM-ə qarşı sanksiyalar tətbiq edib. ABŞ Prezidenti Donald Tramp ötən il fevralın 6-da məhkəmə rəsmilərinə qarşı sanksiyaların tətbiqini nəzərdə tutan sərəncam imzalayıb. Vaşinqton Beynəlxalq Cinayət Məhkəməsini ABŞ və onun müttəfiqləri, o cümlədən İsraillə bağlı araşdırmalar aparmaqda qanunsuz hərəkətlərdə ittiham edib.

Sərəncama əsasən, ABŞ vətəndaşları və ya müttəfiqləri ilə bağlı araşdırmalarda iştirak edən BCM əməkdaşlarına, habelə onların ailə üzvlərinə qarşı maliyyə və viza məhdudiyyətlərinin tətbiqi mümkündür.

"Amerika Qalxanı" ABŞ və bir sıra Latın Amerikası ölkələrinin narkokartellərlə mübarizə və birgə hərbi əməliyyatların həyata keçirilməsi məqsədilə yaratdığı alyansdır.

# Bu il qeyri-leqal miqrantlar arasında ölüm halları artıb



Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) çərşənbə günü açıqladığı yeni məlumatlara görə, şiddətli hava şəraiti, müharibə, iqtisadi təzyiq və dəyişən siyasətlər 2026-cı ilin ilk dörd ayında bir çox bölgədə miqrasiya səyahətlərini yenidən formalaşdırıb və ölüm hallarının artmasına səbəb olub.

AZƏRTAC xəbər verir ki, BMqT-nin ən yeni marşrut əsaslı məlumatları Benqal körfəzindən Atlantik okeanına qədər daha yaxşı həyat axtaran insanlar arasında ölüm hallarının artdığını göstərir. Bu insanların çoxu insan alverçilərinin və ya fırıldaqçıların qurbanı olur.

BMqT-nin baş direktor müavini Uqoçi Daniels Miqrasiya Marşrutlarına Qlobal Baxış hesabatını şərh edərək bildirib: "Diqqət bir neçə marşruta yönəlib, lakin dünyadakı 304 milyon beynəlxalq miqrantın təxminən yarısı iş, ailə, təhsil və təhlükəsizlik üçün öz bölgələrindən köç edir". O əlavə edib ki, həyatları xilas etmək heç bir ölkənin təkbaşına öhdəsindən gələ bilməyəcəyi ortaq bir məsuliyyətdir: "Səyləri birləşdirmək yolu ilə miqrantların ölüm hallarının sayını azaltmaq mümkündür"

BMqT qeyd edib ki, bəzi marşrutlarda miqrantların ölüm halları kəskin azalsa da, digərlərində artıb. Hesabat dövründə Mərkəzi Aralıq dənizi marşrutu boyunca 821 nəfər ölüb və ya itkin düşüb ki, bu da 111 faiz artım deməkdir, miqrant axını isə 46 faiz azalaraq 8577 nəfərə düşüb. Bu ölümlərin yarıdan çoxu təkcə yanvar ayında, "Harri" siklonu bölgəni vurduqda baş verib.

Bu arada, Şərqi Aralıq dənizi marşrutunda ölüm halları üç dəfə artaraq 244 nəfərə çatıb ki, bunların da çoxu Krit adası yaxınlığındakı fəlakətlərlə bağlıdır.

Qərbi Aralıq dənizi marşrutu ilə İspaniyaya gələnlərin sayı 66 faiz artaraq 5647 nəfərə çatıb ki, bu da Seuta və Melilyaya quru yolu ilə keçənlərin sayının üç dəfə artması ilə əlaqəlidir.

Qərbi Afrika Atlantik marşrutu Avropada ən kəskin azalma göstərib və İspaniyada 78 faiz azalaraq 2276 nəfərə düşüb. Çünki gediş nöqtələri daha da cənuba doğru hərəkət edib ki, bu da keçidləri uzadıb və miqrantların həyatını təhlükəyə atıb. Yəməndə Afrika Buynuzunun şərq marşrutu ilə gələnlərin sayında 9 faiz artım müşahidə olunub.

Yaxın Şərqdəki münaqişə Livanda genişmiqyaslı köçkünlüyə və Suriyaya sərhəddən qayıdışların artmasına səbəb olub.

# Avropanın dəyişən rolu: iqtisadi nəhəngdən siyasi gücə çevrilmə axtarışı

əvvəli ötən sayımızda

## Avropa İttifaqının paradoksu: zəngin güc, məhdud siyasi təsir

**Avropanın yeni geosiyasi xəritəsi: Türk dünyası ilə tərəfdaşlıq və qlobal gücə çevrilmə perspektivi**

Əgər əvvəlki dövrdə Avropanın əsas gücü iqtisadi inteqrasiya, vahid bazar və yüksək istehsal imkanları ilə ölçülürdüsə, yeni mərhələdə onun qlobal təsiri daha geniş amillərdən asılı olacaq. Enerji təhlükəsizliyi, nəqliyyat marşrutları, kritik xammallar, regional sabitlik və etibarlı tərəfdaşlıq şəbəkəsi Avropanın gələcək strategiyasının əsas elementlərinə çevrilir. Bu baxımdan Avropanın qarşısında duran əsas məsələ yalnız mövcud imkanları qorumaq deyil, dəyişən dünya nizamında yeni əlaqələr sistemi formalaşdırmaqdır. Məhz bu mərhələdə Türk dünyasının strateji əhəmiyyəti artır. Türk dövlətləri Avropa üçün yalnız coğrafi yaxın region deyil. Bu ölkələr enerji resursları, nəqliyyat imkanları, mühüm bazarlar və regional təhlükəsizlik baxımından Avropanın uzunmüddətli maraqları ilə birbaşa əlaqəlidir.

**Azərbaycan: enerji tərəfdaşlığından strateji əməkdaşlığa**

Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri son illər klassik enerji əməkdaşlığı çərçivəsindən çıxaraq daha geniş geoiqtisadi tərəfdaşlıq modelinə dönür. Azərbaycanın Avropa üçün əhəmiyyəti yalnız neft və qaz ixrac edən ölkə olması ilə izah edilə bilməz. Ölkənin yerləşdiyi coğrafi mövqe, Xəzər regionu ilə Avropa arasında yaratdığı bağlantı, nəqliyyat imkanları və yeni iqtisadi sahələrdə formalaşan potensial Azərbaycanı Avropanın uzunmüddətli strateji tərəfdaşlarından birinə çevirir.

Azərbaycanın əsas üstünlüklərindən biri onun Şərq ilə Qərb arasında yerləşən mühüm geoiqtisadi mövqeyidir. Xəzər dənizi hövzəsi, Mərkəzi Asiya və Avropa arasında yerləşən Azərbaycan həm enerji, həm də nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsindədir. Bu xüsusiyyət ölkəyə yalnız resurs ixrac edən dövlət kimi deyil, regional bağlantıları təmin edən strateji platforma kimi çıxış etmək imkanı verir.



Enerji sahəsi Azərbaycan-Aİ münasibətlərinin əsas istiqamətlərindən biri olaraq qalır. Cənub Qaz Dəhlizi Avropanın enerji mənbələrinin şaxələndirilməsi siyasətində mühüm layihələrdən biridir. Bu layihə vasitəsilə Azərbaycan qazının Türkiyə və Avropa bazarlarına çıxarılması Aİ-nin enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir. Lakin Azərbaycanın Avropa üçün əhəmiyyəti ənənəvi enerji resursları ilə məhdudlaşmır. Qlobal enerji siyasətinin dəyişdiyi, yaşıl enerji və karbon neytrallığı məsələlərinin ön plana çıxdığı bir dövrdə Azərbaycan yeni enerji istiqamətlərində də əməkdaşlıq imkanlarını genişləndirir. Xüsusilə Xəzər dənizinin külək enerjisi potensialı, bərpaolunan enerji layihələri və regional elektrik bağlantıları gələcək əməkdaşlığın yeni istiqamətlərindən biri kimi qiymətləndirilir. Azərbaycanın Avropa üçün digər mühüm üstünlüyü nəqliyyat və logistika sahəsindədir. Çin - Mərkəzi Asiya - Xəzər - Azərbaycan - Türkiyə - Avropa istiqamətində inkişaf edən Orta Dəhliz qlobal təchizat zəncirlərinin yenidən qurulduğu bir dövrdə xüsusi əhəmiyyət qazanır. Dünya iqtisadiyyatında baş verən dəyişikliklər göstərir ki, dövlətlər artıq yalnız ucuz nəqliyyat marşrutları yox, həm də təhlükəsiz, siyasi baxımdan sabit və alternativ logistika imkanları axtarır. Bu baxımdan Azərbaycan Avropa ilə Asiya arasında mühüm tranzit platformasına çevrilir.

Azərbaycan-Avropa İttifaqı iqtisadi əlaqələrinin miqyası da bu strateji yaxınlaşmanı təsdiq edir. Son illərin iqtisadi göstəricilərinə əsasən, Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir. Azərbaycanla Avropa İttifaqı arasında illik ticarət dövriyyəsi təxminən 19,7 milyard ABŞ dolları səviyyəsindədir. Aİ ölkələri Azərbaycanın ümumi ixracında təxminən 67 faizdən çox paya malik olmaqla ölkənin əsas ixrac bazarını təşkil edir. Eyni zamanda, Azərbaycanla Avropa arasında ticarət əlaqələrinin mühüm xüsusiyyəti ondan ibarətdir ki, ixrac həcmi idxaldan əhəmiyyətli dərəcədə yüksəkdir. Bu, Azərbaycanın Avropa bazarında enerji və sənaye məhsulları üzrə mühüm mövqe tutduğunu göstərir.

Aİ daxilində Azərbaycanın başlıca ticarət tərəfdaşlarından biri İtaliyadır. Bu ölkə Azərbaycan nefti və qazının Avropada əsas alıcılarındandır. Bununla yanaşı, Almaniya, Yunanıstan, Çexiya və İspaniya kimi ölkələrlə də iqtisadi əlaqələr genişlənir. Bu münasibətlər göstərir ki, Azərbaycan-Avropa əməkdaşlığı yalnız siyasi dialoq deyil, real iqtisadi maraqlar üzərində formalaşır.

Əhəmiyyətli məqam ondan ibarətdir ki, Azərbaycanın Avropa bazarına çıxışı artıq yalnız enerji sektoru ilə məhdudlaşmır. Son illər qeyri-neft sektorunun inkişafı və ixracın şaxələndirilməsi istiqamətində müəyyən irəliləyiş müşahidə olunur. Azərbaycanın Avropaya ixrac etdiyi qeyri-neft məhsulları sırasında kimya sənayesi məhsulları, metallurgiya məhsulları, qiymətli metallar, kənd təsərrüfatı məhsulları və sənaye malları xüsusi yer tutur. SOCAR Polymer kimi sənaye müəssisələrinin fəaliyyəti nəticəsində polipropilen və yüksək sıxlıqlı polietilen kimi kimya məhsullarının ixrac imkanları genişlənib. Karbamid zavodunun istehsal etdiyi məhsullar da Azərbaycanın qeyri-neft ixracında mühüm istiqamətlərdən birinə çevrilib.

Metallurgiya sahəsində Azərbaycan məhsulları da Avropa sənayesi üçün əhəmiyyət daşıyır. İlkin alüminium, metal məhsulları və digər sənaye xammalları Avropa bazarlarına çıxarılır. Bu, Azərbaycanın yalnız enerji ixrac edən yox, həm də sənaye məhsulları istehsal edən iqtisadiyyat formalaşdırmaq istiqamətində irəlilədiyini göstərir. Kənd təsərrüfatı sahəsində isə Azərbaycan məhsulları Avropa bazarında xüsusi yer tutur. Fındıq, meyvə-tərəvəz və digər aqrar məhsullar Avropa ölkələrinə ixrac edilir. Bu sahədə əsas məqsəd yalnız xammal ixracı deyil, yüksək əlavə dəyər yaradan emal sənayesinin inkişaf etdirilməsidir.

Son illər qeyri-neft ixracında müşahidə olunan artım Azərbaycanın iqtisadi modelində baş verən dəyişikliklərin göstəricisidir. Qeyri-neft sektorunun ixrac potensialının genişlənməsi ölkənin enerji gəlirlərindən asılılığını azaltmaq və daha çoxşaxəli iqtisadi struktur formalaşdırmaq məqsədinə xidmət edir. Bu prosesdə dövlət proqramları, ixracatçılara göstərilən dəstək mexanizmləri, logistika infrastrukturunun inkişafı və beynəlxalq standartlara uyğunlaşma mühüm rol oynayır. Azərbaycan müəssisələrinin Avropa bazarının keyfiyyət tələblərinə uyğunlaşması onların rəqabət imkanlarını artırır. Beləliklə, Azərbaycan-Avropa münasibətlərində yeni mərhələ formalaşır. Əvvəllər əsas diqqət enerji ixracına yönəlirdisə, indi əməkdaşlıq daha geniş istiqamətləri əhatə edir: enerji təhlükəsizliyi, yaşıl enerji, logistika, sənaye, kənd təsərrüfatı, texnologiya və investisiya əməkdaşlığı.

Avropa üçün Azərbaycan yalnız Xəzər regionundan enerji əldə edən tərəfdaş deyil, Avropa ilə Asiya arasında bağlantı yaradan, alternativ nəqliyyat imkanları təqdim edən və yeni iqtisadi əməkdaşlıq platformaları formalaşdıran strateji tərəfdaşdır. Məhz bu səbəbdən Azərbaycan-Avropa əlaqələrinin gələcəyi yalnız resurs mübadiləsi ilə deyil, qarşılıqlı iqtisadi inteqrasiya və uzunmüddətli geoiqtisadi əməkdaşlıq modeli ilə müəyyən olunacaq. XXI əsrin yeni dünya nizamında dövlətlərin gücü yalnız sahib olduqları resurslarla deyil, həmin resursları beynəlxalq tərəfdaşlıq imkanlarına çevirmək bacarığı ilə ölçülür. Bu baxımdan Azərbaycan Avropanın dəyişən geosiyasi və iqtisadi xəritəsində mühüm rol oynayan ölkələrdən biri kimi çıxış edir.

**Türkiyə: Avropanın təhlükəsizlik və iqtisadi tərəfdaşı**

Avropanın yeni geosiyasi strategiyasında Türkiyənin rolu xüsusi əhəmiyyət daşıyır. Türkiyə Avropa ilə Asiyanın kəsişməsində yerləşən, NATO üzvü olan və regional təhlükəsizlik proseslərinə ciddi təsir göstərən dövlətdir. Türkiyənin strateji əhəmiyyəti onun coğrafi mövqeyi ilə bağlıdır. Qara dəniz, Balkanlar, Qafqaz və Yaxın Şərq arasında yerləşməsi Türkiyəyə regional proseslərdə mühüm rol verir. Avropa üçün Ankara eyni zamanda böyük iqtisadi tərəfdaşdır. Türkiyə Aİ-nin əsas ticarət tərəfdaşlarından biridir və Avropa şirkətləri üçün mühüm istehsal və investisiya məkanı hesab olunur. Türkiyənin sənaye potensialı, xüsusilə avtomobil istehsalı, müdafiə sənayesi, logistika və enerji sektorları Avropa iqtisadiyyatı ilə sıx əlaqəlidir. Beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Ian Bremmer qlobal güc balansını təhlil edərkən yazır ki, XXI əsrdə dövlətlərin təsiri yalnız hərbi və iqtisadi imkanlarla yox, onların müxtəlif regional sistemlər arasında əlaqə yaratmaq qabiliyyəti ilə də müəyyən olunur. Bu baxımdan Türkiyə Avropa ilə Asiya arasında strateji bağlantı yaradan əsas ölkələrdən biridir.

**Mərkəzi Asiya: Avropanın yeni iqtisadi tərəfdaş məkanı**

Avropanın gələcək strategiyasında Mərkəzi Asiyanın rolu da artır. Qazaxıstan, Özbəkistan və digər region ölkələri təbii resurslar, sənaye imkanları və nəqliyyat potensialına malikdir. Qazaxıstan xüsusilə kritik xammallar sahəsində mühüm tərəfdaşdır. Avropa İttifaqının yaşıl enerji və yüksək texnologiya strategiyası üçün litium, uran, nadir metallar kimi resurslara çıxış böyük əhəmiyyət daşıyır. Avropa Komissiyası son illər kritik xammallar üzrə tərəfdaşlıq siyasətini gücləndirir. Məqsəd müəyyən ölkələrdən asılılığı azaltmaq və daha təhlükəsiz təchizat zəncirləri yaratmaqdır. Bu baxımdan Mərkəzi Asiya Avropa üçün yeni imkanlar təqdim edir. Özbəkistan isə iqtisadi transformasiya mərhələsində olan ölkələrdən biridir. Ənənəvi olaraq pambıq istehsalı ilə tanınan Özbəkistan son illər sənaye emalı, tekstil istehsalı və xarici investisiyaların cəlb edilməsi istiqamətində dəyişikliklər həyata keçirir. Avropa üçün əsas imkan ondan ibarətdir ki, region ölkələri ilə münasibətlər yalnız xammal mübadiləsi səviyyəsində qalmamalıdır. Müasir əməkdaşlıq texnologiya transferi, birgə istehsal, logistika və innovasiya layihələri üzərində qurulmalıdır.

**Avropanın gələcək seçimi: tərəfdaşlıq şəbəkəsi və siyasi güc**

Avropa İttifaqının gələcək qlobal mövqeyi böyük ölçüdə onun tərəfdaşlıq siyasətindən asılı olacaq. Dünya artıq əvvəlki kimi yalnız bir neçə böyük güc mərkəzinin təsiri altında formalaşmır. Yeni dövrdə uğurlu dövlətlər və siyasi birliklər geniş əməkdaşlıq şəbəkələri yaradanlar olacaq. ABŞ qlobal təsirini müttəfiqlər sistemi üzərində qurur. Çin iqtisadi və infrastruktur layihələri vasitəsilə təsir imkanlarını genişləndirir. Avropanın isə öz modelini formalaşdırması üçün iqtisadi imkanlarını strateji tərəfdaşlıqlarla birləşdirməsi lazımdır. Avropanın türk dövlətləri ilə münasibətləri bu baxımdan mühüm istiqamət ola bilər. Azərbaycan Avropaya enerji və nəqliyyat imkanları təqdim edir. Türkiyə təhlükəsizlik, sənaye və regional əlaqələr baxımından mühüm tərəfdaşdır. Qazaxıstan və Mərkəzi Asiya kritik xammallar və yeni iqtisadi bağlantılar baxımından əhəmiyyətlidir. Özbəkistan isə inkişaf edən bazar və istehsal imkanları ilə yeni əməkdaşlıq perspektivləri yaradır. Lakin gələcək münasibətlər qarşılıqlı fayda prinsipi əsasında qurulmalıdır. Avropa yalnız resurs qazanan tərəf kimi çıxış edərsə, uzunmüddətli strateji tərəfdaşlıq formalaşdırmaq çətin olacaq. Əsl güclü əməkdaşlıq investisiya, texnologiya, təhsil, sənaye və siyasi dialoq üzərində qurulur.

Avropanın qarşısında duran əsas məsələ budur: iqtisadi imkanlarını qlobal siyasi təsirə çevirmək. XXI əsrin beynəlxalq sistemində liderlik yalnız böyük daxili bazara, yüksək ÜDM-ə və inkişaf etmiş sənayeyə malik olmaqla qazanılmır. Əsas üstünlük müxtəlif regionlarla etibarlı əlaqələr qura bilmək, dəyişən reallıqlara uyğunlaşmaq və strateji qərarlar qəbul etmək bacarığıdır. Avropa İttifaqı əgər Türk dünyası, Xəzər regionu və Mərkəzi Asiya ilə daha dərin və uzunmüddətli əməkdaşlıq modeli yarada bilsə, qlobal sistemdə öz rolunu əhəmiyyətli dərəcədə gücləndirər. Əks halda, Avropa dünyanın ən zəngin iqtisadi məkanlarından biri kimi qalacaqsa da, böyük güclər arasında strateji qərarların formalaşmasında təsiri məhdud olacaq. Yeni dünya nizamında Avropanın gələcəyi onun sərvətindən çox tərəfdaşlarını necə seçəcəyindən və bu tərəfdaşlıqları hansı strateji məqsədlərə çevirəcəyindən asılıdır.



***Kəramət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Sentyabr yaxınlaşır...



## Kirayə mənzil bazarında qiymətlər necə olacaq?

Yeni dərs ili yaxınlaşdıqca ölkənin kirayə mənzil bazarında hər il müşahidə olunan mövsümi canlanma artıq özünü göstərməyə başlayır. Bazar iştirakçılarının davranışları onu deməyə əsas verir ki, sentyabr ayına qədər tələbin daha da artması fonunda qiymətlərdə müəyyən yüksəliş tendensiyası qaçılmaz görünür. Ali və orta ixtisas təhsil müəssisələrində yeni tədris ilinin başlanması, regionlardan Bakıya və digər iri şəhərlərə tələbə axınının intensivləşməsi, yay məzuniyyətindən qayıdan ailələrin kirayə axtarışlarını sürətləndirməsi bazarda mövcud təklifə əlavə təzyiq formalaşdırır.

Daşınmaz əmlak bazarını təhlil etdikdə aydın görünür ki, kirayə mənzil seqmentində qiymətlərin dəyişməsi yalnız mövsümi amillərlə izah olunmur. Eyni zamanda, son illərdə mənzil fondunun bir hissəsinin qısamüddətli turist kirayəsinə yönəldilməsi, yeni tikililərdə kirayə üçün uyğun mənzillərin məhdud sayda bazara çıxarılması fonunda ev sahiblərinin gəlirlərini qorumaq istəyi də qiymətlərin yüksəlməsinə təsir edən əsas faktorlar sırasında yer alır. Nəticədə, bazarda tələb təklifdən daha sürətlə artdığı üçün qiymət tarazlığı yuxarı istiqamətdə formalaşır.

### Bu ərazilərdəki mənzillər daha da bahalaşacaq

Daşınmaz əmlak üzrə ekspert Elnur Fərzəliyev "Yeni Azərbaycan"a bildirib ki, iqtisadi baxımdan kirayə mənzil bazarında avqust-sentyabr ayı hər zaman xüsusi əhəmiyyət daşıyır, çünki bu dövrdə bazara daxil olan yeni kirayəçilərin sayı ilin digər ayları ilə müqayisədə daha yüksək olur. Onun sözlərinə görə, ev sahibləri də bu vəziyyətdən istifadə edərək kirayə haqlarını yenidən nəzərdən keçirirlər: "Xüsusilə, metro stansiyalarına yaxın yerləşən, universitetlərə rahat çıxışı olan, təmirli və əşyalı mənzillər üzrə qiymət artımı daha qabarıq hiss edilir. Çünki məhz bu kateqoriyaya daxil olan mənzillərə tələbat ən yüksək səviyyədə olur.

Müşahidələr göstərir ki, bazarda ən çox maraq doğuran mənzillər bir və ikiotaqlı yaşayış sahələridir, çünki tələbələrin, gənc ailələrin və yeni işə başlayan şəxslərin əsas seçimi məhz bu seqmentə yönəlir. Belə mənzillərin bazarda dövriyyə müddəti də kifayət qədər qısadır, yəni münasib qiymətə təklif olunan mənzil çox vaxt bir neçə gün ərzində kirayə götürülür ki, bu da ev sahiblərinin daha yüksək qiymət tələb etmək imkanlarını artırır".

### Qiymət artımı bütün mənzillərə təsir etməyəcək...

E.Fərzəliyev qeyd edib ki, bazarda qiymət artımının bütün seqmentlər üzrə eyni tempdə baş verəcəyini demək doğru olmaz: "Şəhər mərkəzindən uzaq ərazilərdə yerləşən köhnə tikililər, təmirsiz və ya nəqliyyat baxımından əlverişsiz mənzillər üzrə qiymət artımı daha məhdud ola bilər. Lakin keyfiyyətli yaşayış sahələri üzrə rəqabət kifayət qədər yüksək qalacağı üçün, həmin mənzillərin kirayə haqqının əvvəlki aylarla müqayisədə daha baha təklif olunacağı gözlənilir.

Hazırkı mərhələ göstərir ki, kirayə mənzil axtaran şəxslər qərarlarını sentyabr ayına saxladıqları halda daha yüksək qiymətlərlə qarşılaşa bilərlər: "Avqustun ikinci yarısından başlayaraq tələb kəskin şəkildə artır və bazara çıxarılan münasib mənzillər qısa müddət ərzində kirayəyə verilir. Nəticədə, seçim imkanları azalır və bazarda qiymətlərin yuxarı istiqamətdə hərəkəti sürətlənir".

### Bu layihələr kirayə bazarında qiyməti azalda bilər

Ekspertin sözlərinə görə, bazarda uzunmüddətli sabitliyin təmin olunması üçün yalnız mövsümi tələbə uyğun reaksiyalar kifayət etmir: "Kirayə mənzil fondunun genişləndirilməsi, yeni yaşayış layihələrinin istifadəyə verilməsi, kirayə bazarının daha şəffaf mexanizmlərlə tənzimlənməsi və mənzil təklifinin artırılması istiqamətində atılacaq addımlar qiymət təzyiqlərinin azalmasına müsbət təsir göstərə bilər. Əks halda, hər yeni tədris ili ərəfəsində qiymət artımı tendensiyası yenidən təkrarlanacaq və bazarda mövsümi dalğalanmalar davam edəcək.

Ümumilikdə, mövcud iqtisadi şərait və bazarın dinamikası onu göstərir ki, sentyabr ayının yaxınlaşması ilə kirayə mənzil bazarında fəallıq daha da artacaq. Xüsusilə, tələbin yüksək olduğu ərazilərdə qiymətlərin müəyyən qədər yüksələcəyi ehtimalı böyükdür. Bu səbəbdən kirayə mənzil axtaran vətəndaşların seçimlərini mümkün qədər erkən etmələri həm daha geniş alternativlər əldə etmələrinə, həm də əlavə maliyyə yükündən yayınmalarına imkan yarada bilər".

### Kirayə bazarında qiymətlərə təsir edən amillər

Kirayə verilən evlərə bağlı müqavilə bağlanmalı və bununla bağlı vergi verilməsi nəzərdə tutulur. Bu arada qeyd edək ki, kirayə mənzillərlə bağlı bəzi cərimələr artırılıb. Belə ki, kirayə münasibətlərinə müqavilə bağlamadan daxil olmaq artıq inzibati məsuliyyət yaradır. Əvvəllər bu qaydanı pozanlara tətbiq olunan cərimə 30 manat idisə, hazırda bu məbləğ 300 manata qədər yüksəldilib.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc bildirib ki,  bu addımın əsas məqsədi kirayə bazarında münasibətlərin rəsmiləşdirilməsi və şəffaflığın artırılmasıdır.

"Eyni zamanda, bu qərar vergidən yayınma hallarının qarşısını almağa, daha çox şəxsin vergi sisteminə cəlb olunmasına xidmət edir. Bu isə ümumilikdə iqtisadiyyat üçün vacib hesab olunur və kirayə münasibətlərinin daha sivil, beynəlxalq standartlara uyğun qurulmasına şərait yaradır.

Bu dəyişikliklərin qiymətlərə təsiri məsələsinə gəldikdə isə, ehtimal olunur ki, kirayə bazarında münasibətlər tam hüquqi çərçivəyə salındıqca qiymətlərdə artım müşahidə oluna bilər. Çünki ev sahibləri ödədikləri vergiləri və əlavə xərcləri kirayə haqqına daxil etməyə çalışacaqlar. Oxşar hallar digər ölkələrdə də müşahidə olunur".

Vüqar Oruc hesab edir ki, hazırda kirayədən əldə olunan illik gəlirin mənzilin ümumi dəyərinə nisbəti göstərir ki, bir mənzil təxminən 20-21 il ərzində öz dəyərini geri qaytarır:

"Bu müddət bəzi ölkələrlə müqayisədə daha uzundur. Buna görə də kirayə qiymətlərində müəyyən artımın baş verməsi təbii sayılır.

Bununla belə, yalnız cərimələrin artırılması və inzibati tədbirlərin sərtləşdirilməsi ilə problemi tam həll etmək çətin ola bilər. Daha effektiv yanaşma kimi vergi yükünün azaldılması göstərilir. Hazırda kirayə gəlirlərinə tətbiq olunan vergi dərəcəsi 14 faizdən 10 faizə endirilib.

*Yeganə BAYRAMOVA*

# Süni intellekt həyatı çətinləşdirir?

Süni intellektin (AI) iş yükünü azaldacağı və daha qısa iş həftəsinə keçməyə imkan verəcəyi ilə bağlı proqnozlara



baxmayaraq, AI sistemlərini inkişaf etdirən şirkətlərdə çalışanlar əks tendensiya ilə üzləşirlər. "OpenAI", "Anthropic", "Meta" və "Google" texnoloji şirkətlərinin keçmiş və hazırkı əməkdaşları müntəzəm əlavə iş saatları, həftəsonu işləri və rəhbərliyin güclü təzyiqi barədə danışıblar.

"TechCrunch"a görə, "OpenAI" və "Anthropic"də intensiv layihə işləri bir neçə həftə davam edə və iş həftələri 90 saatdan çox ola bilər. Keçmiş əməkdaşlardan biri qeyd edib ki, keçən il şirkətdən ayrılmazdan əvvəl həftədə azı 70 saat işləyirdi. Bu arada, sənayedə AI-nin inkişafının şirkətləri dördgünlük iş həftəsinə doğru aparacağı ilə bağlı fərziyyələr hələ də davam edir.

Əməkdaşların sözlərinə görə, süni intellektin tətbiqi hələ ki, iş yükünün azalmasına səbəb olmayıb. Əksinə, fərdi tapşırıqların daha sürətli yerinə yetirilməsi işəgötürənlərə onların sayını artırmağa imkan verir, işçilər isə süni intellekt tərəfindən yaradılan nəticələri əlavə olaraq yoxlamağa məcbur olurlar.

Ekspertlər qeyd edirlər ki, süni intellekt sayəsində artan məhsuldarlıq işçilər üçün daha çox asudə vaxtı təmin etmir. Əgər şirkətlər yerinə yetirilən tapşırıqların həcmini artırmaq üçün səmərəlilik qazanclarından istifadə edirlərsə, texnoloji irəliləyişlər iş gününün azalmasına deyil, işçilər üçün iş yükünün artmasına səbəb ola bilər.

Tədqiqatlar göstərir ki, süni intellektin tətbiqi nəticəsində əməkdaşlar fərdi tapşırıqları daha sürətli yerinə yetirsələr belə, onların iş yükü artır. İşəgötürənlər bu tapşırıqların həcmini artırmağa hazırdırlar və işçilər süni intellekt nəticələrini yoxlamaq üçün əlavə vaxt sərf etmək məcburiyyətində qalırlar. Mütəxəssislər hesab edirlər ki, süni intellektin tətbiqi nəticəsində artan məhsuldarlıq əməkdaşlara asudə vaxt vermək əvəzinə, onların iş yükünü artıracaq.

# Yeniyetmələrin Respublika Şahmat Olimpiadasına yekun vurulub

Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyasının (AŞF) birgə təşkilatçılığı ilə Qusar Olimpiya İdman Kompleksində keçirilən 16 yaşadək yeniyetmələrin Respublika Şahmat Olimpiadasına yekun vurulub.

AŞF-dən AZƏRTAC-a verilən məlumata görə, olimpiadada yarışlar iki yaş kateqoriyası üzrə A (11-16) və B (10 yaş və daha kiçik) qruplarında təşkil edilib. A qrupunda oğlanlar arasında Suat İbrahimli, qızlarda isə Əsnad Baxşızadə qalib olub. Hər iki şahmatçı Azərbaycan Şahmat Federasiyası tərəfindən Avropa çempionatına ezam olunacaq.

Müxtəlif yaş kateqoriyalarında İnci Cəbrayılova, Ziya Qubatov (8 yaşlılar), Nurgün Fəxrətzadə, Azad Xuduzadə (10 yaşlılar), Sadəgül Əfəndi, Əyyub Zəkiyev (12 yaşlılar), Əsnad Baxşızadə, Suat İbrahimli (14 yaşlılar), Rəna Ağamirzəyeva və Emin İsmayılov (16 yaşlılar) birincilik qazanıblar.

Komanda hesabında A qrupunda birinci yeri 4 nömrəli İOEUGİŞM tutub. 3 nömrəli



RİOEUGİŞM ikinci, Quba komandası isə üçüncü olub. B qrupunda 3 nömrəli UGİŞM fəxri kürsüdə ən yüksək yerə layiq görülüb. Quba komandası və 4 nömrəli UGİŞM müvafiq olaraq ikinci və üçüncü yerləri bölüşüb.

Qeyd edək ki, Olimpiadada ölkənin 30-a yaxın şəhər və rayonlarının, eləcə də şahmat məktəbləri, klubları və idman cəmiyyətlərinin 16 yaşadək oğlan və qız şahmatçıları iştirak ediblər. Ümumilikdə turnirdə 326 yeniyetmə mübarizə aparıb. İsveçrə sistemi üzrə 11 turdan ibarət yarış şəxsi-komanda xarakteri daşıyıb.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyevə əzizi

**AYDIN ƏMİKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4490**
**Sifariş: 1044**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova